

Milli azadlıqdan şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

30 iyul 2025-ci il, çərşənbə
№ 131 (6958)
Qiymәti 60 qәpik

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.


## Bəşəriyyətin ümumi irsinə samballı töhfə



Bax səh. 2

## Qarabağın dirçəliş strategiyasının canlı nümunəsi!

Bax səh. 6

## Güzəştli ipotekada yeni fürsət

Məlum olduğu kimi, dövlət başçısının imzaladığı müvafiq fərmana əsasən, İpoteka və Kredit Zəmanət Fondunun nizamnamə kapitalı 85 milyon manat artırılaraq 1 milyard 153 milyon manata çatdırılıb. Nizamnamə kapitalının artırılması güzəştli ipoteka kreditlərinin maliyyələşdirilməsini təmin edən maliyyə portfelinin təxminən 8-9 faiz böyüməsinə səbəb olmaqla, fondun imkanlarını daha da genişləndirir. Fondun nizamnamə kapitalı artdıqca daha çox ipoteka kreditlərinin təklifi mümkün olur və güzəştli şərtlərlə kreditlərin əldə edilməsi və əlçatanlıq artır, nəticədə daha çox vətəndaş güzəştli ipoteka kreditindən faydalana bilir.

Son illərdə İpoteka və Kredit Zəmanət Fondunun nizamnamə kapitalının artırılması siyasəti yürüdülür və dövlət büdcəsindən bu sahəyə ayrılan vəsaitlər sosial ipoteka kreditlərin əhatəliliyinin daha da artırılmasına xidmət edir. Xüsusən də güzəştli şərtlərlə kredit əldə edənlər üçün imkanlar artır ki, bu maliyyə təchizatı iqtisadi və sosial təyinatlı kreditlərinin portfelini genişləndirir. İpoteka kreditləri sosial məzmun daşımaqla vətəndaşların mənzil kreditləri əldə etməsini motivasiya edir və hər il bu sosial zəncirə qoşulanların sayı da çoxalır. Qeyd edək ki, indiyədək fond tərəfindən 54 min 918 ipoteka krediti verilib. Verilmiş ipoteka kreditlərinin...

Bax səh. 5

## Azərbaycan haqq yolundan dönməyəcək!



Bax səh. 4

## Minatəmizləmə prosesində Azərbaycan nümunəsi

Bax səh. 3

## “Startap” şəhadətnaməli biznes subyektlərinin sayı artır

Bax səh. 5

## Tramp möhləti azaldır...

Bax səh. 7

## Yüksək səviyyəli etimad və qarşılıqlı anlaşma

Bakıda Azərbaycan ilə Türkmənistan arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 8-ci iclası keçirilib. Komissiyanın həmsədri, iqtisadiyyat naziri Mikayıl Cabbarov iki ölkə arasında münasibətlərin möhkəm tarixi təməl, mədəni yaxınlıq və iki qardaş xalqın qarşılıqlı hörmətinə əsaslandığını vurğulayıb. Qeyd olunub ki, dövlət başçılarımız arasında yüksək səviyyəli etimad və qarşılıqlı anlaşma əməkdaşlığın gücləndirilməsində xüsusi əhəmiyyət kəsb edir. Ölkələrimiz arasında iqtisadiyyat, ticarət, energetika, nəqliyyat və humanitar əlaqələr kimi əsas sahələri əhatə edən geniş tərəfdaşlıq gündəliyi daha da möhkəmlənir. Azərbaycanda sənaye, nəqliyyat, tikinti, ticarət və xidmət sahələrində Türkmənistan kapitallı 75 şirkət fəaliyyət göstərir ki, bu da iqtisadi-ticari mübadilələrin artmasında töhfəverici rol oynayır.

Birgə Hökumətlərarası Komissiyanın həmsədri, Türkmənistanın Nazirlər Kabineti sədrinin müavini Nökərqulı Ataqulıyev Azərbaycanla müxtəlif sahələr üzrə qarşılıqlı faydalı əməkdaşlığın inkişafı üçün geniş perspektivlər olduğunu vurğulayıb, tərəfdaşlığın inkişafı istiqamətləri haqqında fikirlərini bölüşüb.

Tədbirdə müxtəlif sahələrdə birgə fəaliyyətin perspektivləri, iqtisadi müstəvidə...

Bax səh. 3

## Fələstin dövləti tanınacaqmı?



Bax səh. 7

## Region ekoloji təhlükə altında...



Bax səh. 6

# Bəşəriyyətin ümumi irsinə sanballı töhfə

Müstəqil Azərbaycanla Vatikan arasında münasibətlər çoxvektorlu səciyyə daşıyır və yüksələn xətlə inkişaf edir. Bugünlərdə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə Müqəddəs Taxt-Tacın Dinlərarası Dialoq üzrə Dikasteriyası arasında dinlərarası dialoq sahəsində anlaşma memorandumu imzalanıb.

Memorandum tərəflər arasında dinlərarası və mədəniyyətlərarası dialoqun təşviqi, qarşılıqlı anlaşma və tolerantlığın gücləndirilməsi məqsədilə təcrübə və məlumat mübadiləsini, həmçinin birgə tədbirlərin həyata keçirilməsini nəzərdə tutur. Sənəddə, həmçinin dini təhsil sahəsində əməkdaşlığın inkişaf etdirilməsi əks olunub.

Anlaşma memorandumunu Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov və Müqəddəs Taxt-Tacın Dinlərarası Dialoq üzrə Dikasteriyasının prefekti, kardinal Corc Ceykob Kuvakad imzalayıblar.





## Azərbaycan çoxkonfessiyalı ölkədir

Ölkəmizin zəngin multikultural mühiti Azərbaycanın çox mühüm reallığı və üstünlüyüdür. Respublikamızda İslam adət-ənənələrinə böyük hörmət bəslənildiyi kimi, burada yaşayan digər xalqların da milli-mənəvi dəyərlərinin qorunmasına dövlət tərəfindən böyük qayğı göstərilir. Tolerantlıq, müxtəlif xalqların nümayəndələrinin bir-birlərinə yüksək səviyyədə dözümlü münasibət bəsləmələri respublikamızda tarixdən gələn ənənədir. Tarixin lap qədim dövrlərindən xalqımızın yaratdığı mədəniyyət nümunələrində, klassiklərimizin əsərlərində bir qayda olaraq, başqa mədəniyyətlərə, humanizm, həmrəylik kimi bəşəri dəyərlərə yüksək hörmət ifadə edilib. Azərbaycan ərazisindəki tarixi abidələr də respublikamızın mədəni müxtəlifliyini aydın şəkildə nümayiş etdirir. Multikulturalizm, etnik və dini müxtəliflik bu gün də ölkəmizin qürur doğuran reallığıdır. Bu xüsusda fikirlərini ifadə edən Prezident İlham Əliyev bildirib: "Əsrlər boyu Azərbaycanda xalqlar həmişə müxtəliflik mühitində yaşayıb. Multikulturalizm, etnik və dini müxtəliflik tariximizin bir parçası və bugünkü reallıqdır. Biz bununla fəxr edirik".



Ölkəmizdə Prezident İlham Əliyevin iradəsi ilə həyata keçirilən məqsədyönlü siyasətin məntiqi nəticəsidir ki, bu gün Azərbaycan millətlərarası və dinlərarası dialoq baxımından da nümunəvi bir ölkə kimi fərqlənir. Onilliklər ərzində qonşu dövlətin işğalçılıq siyasətindən əziyyət çəkmiş Azərbaycanın hazırkı narahat dünyada sivilizasiyalararası dialoqa, multikultural dəyərlərin qorunmasına verdiyi töhfələr xüsusilə diqqətəlayiqdir. Azərbaycan elə bir məkandır ki, burada milli-dini-irqi müxtəliflik insanlar arasında fərq yaradan, kimlərəsə üstünlük verən və yaxud kimləri isə alçaldan amil kimi çıxış etmir. Əksinə, burada tolerantlıq, milli-dini-irqi müxtəliflik cəmiyyətin əsas və üstün dəyəri kimi təqdim olunur. Azərbaycan öz üstünlüyünü ölkənin çoxmədəniyyətli və çoxkonfessiyalı olmasında görür. Respublikamızda İslam dininə aid tarixi-dini abidələrin bərpasına dövlət vəsaiti ayrıldığı kimi, digər dinlərlə bağlı abidələrə də eyni yanaşma tətbiq olunur. Məsələn, ölkəmizdə dövlət həmçinin rus pravoslav, katolik, alban kilsələrinin tikintisinə və bərpasına da öz dəstəyini göstərib. Əlamətdar haldır ki, Prezident İlham Əliyev həmin abidələrin bərpadan sonra açılışına şəxsən qatılaraq xeyir-duasını və tövsiyələrini verir.

Son illərdə Azərbaycan qlobal iqtisadi əhəmiyyət daşıyan, eyni zamanda multikultural dəyərləri təbliğ edən tədbirlərin keçirildiyi məkana çevrilib. Bakıda ardıcıl olaraq İlham Əliyevin təşəbbüsü ilə əsası qoyulan Mədəniyyətlərarası Dialoq və Humanitar forumlar baş tutur. Artıq bütün dünyada tanınan Qlobal Bakı Forumu Azərbaycan Prezidentinin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə 2013-cü ildən keçirilir. Ölkəmiz xalqımızın xoş məramına uyğun olaraq bu kimi tədbirlərə məmnuniyyətlə ev sahibliyi etməklə hazırda dünya üçün böyük önəm daşıyan dəyərlərin qorunmasına sanballı töhfəsini verir.

## Səmimi qarşılıqlı anlaşma mühiti

Müstəqil Azərbaycanla Müqəddəs Taxt-Tac arasında səmimi dialoq və qarşılıqlı anlaşma mühiti var. Ölkəmizlə Vatikan arasında diplomatik münasibətlər 23 may 1992-ci ildə qurulub və həmin vaxtdan etibarən yüksələn xətlə inkişaf edib. 1997-ci ilin sentyabr ayında Azərbaycan Prezidenti Heydər Əliyevin Vatikana, 2002-ci ilin 22-23 may tarixlərində Azərbaycan Prezidentinin dəvəti ilə Katolik Kilsəsinin rəhbəri II İohan Pavelin ölkəmizə səfəri ikitərəfli əlaqələrin möhkəm bünövrəsini qoyub. Bu səfərlərin ardınca Bakıda Müqəddəs Məryəm Katolik Kilsəsinin tikilməsi, 2008-ci ildə onun rəsmi açılışında Müqəddəs Taxt-Tacın Dövlət Katibi kardinal Tarçisio Bertonenin iştirakı Azərbaycanın Taxt-Tacla əlaqələrinə önəmli təkan verib. Xatırladaq ki, Papa II İohan Pavelin respublikamıza səfəri zamanı iki dövlət başçısı tərəfindən Azərbaycanda katolik kilsənin tikilməsi razılaşdırılıb, Azərbaycan dövləti kilsənin tikilməsi üçün ödənişsiz yer ayırıb, Vatikan tərəfi isə kilsənin tikintisini təmin edib.

Sonakı dövrdə yüksək səviyyəli rəsmilərin iştirakı ilə qarşılıqlı səfərlər daha da intensivləşib. O cümlədən Prezident İlham Əliyev bir neçə dəfə Müqəddəs Taxt-Taca səfər edib və Papa həzrətləri ilə görüşüb. Sonuncu dəfə dövlətimizin başçısı 2020-ci ildə İtaliyaya dövlət səfəri çərçivəsində birinci xanım Mehriban Əliyeva ilə birlikdə Vatikanda olublar, Katolik Kilsəsinin rəhbəri Papa Fransisk ilə görüşüblər. Həmçinin Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva 2018-ci ilin 23-26 sentyabr tarixlərində Müqəddəs Taxt-Taca səfər edib.



## Dövlət başçımıza Vatikanda xüsusi ehtiram

Bütövlükdə Azərbaycanın dünyada mədəniyyətlərarası dialoqun inkişafına verdiyi töhfələr, ölkəmizdəki nümunəvi multikulturalizm mühiti Vatikanda yüksək dəyərləndirilir. Zamanında Papa Fransisk Prezident İlham Əliyevlə görüşlərinin birində xüsusi olaraq qeyd edib ki, Sizin ölkədə dini azadlıqlar tam təmin edilib.

Bəhs olunan memorandumun imzalanması tədbirində dövlət komitəsinin sədri Ramin Məmmədov sənədin dinlərarası harmoniya və mədəni müxtəlifliyin təşviqinə mühüm töhfələr verəcəyinə, bu dəyərlərin tanıdılmasında əhəmiyyətli rol oynayacağına əminliyini ifadə edib. Müqəddəs Yubiley İli münasibətilə təbriklərini çatdıran komitə sədri Azərbaycan Respublikası ilə Müqəddəs Taxt-Tac arasında dostluq və əməkdaşlıq əlaqələrinin böyük inkişaf yolu keçdiyini vurğulayıb. Bildirib ki, Heydər Əliyev Fondu ilə Vatikan arasında əməkdaşlıq dünyada mədəniyyətlərarası dialoq və dünya mədəni irsinə həssas münasibətin ən yaxşı nümunələrindən biri kimi qiymətləndirilir. Vurğulayıb ki, katakombaların bərpası, Vatikan muzeyi və Apostol kitabxanası ilə əməkdaşlıq, arxiv əlyazmalarının rəqəmsallaşdırılması kimi uğurlu layihələrin məqsədi bəşəriyyətin ümumi irsinə töhfə verməkdən ibarətdir.

Ölkəmizdəki dini mühit barədə məlumat verən Ramin Məmmədov qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasəti beynəlxalq hüququn prinsip və normalarına əsaslanır. Azərbaycanda dini konfessiyalar arasında qarşılıqlı hörmət, anlaşma mühitinin gücləndirilməsinə xüsusi diqqət yetirilir.

R.Məmmədov bildirib ki, torpaqlarımız işğaldan azad edildikdən sonra atılan əsas addımlardan biri də erməni vandalizminə məruz qalmış dini abidələrin bərpası və yenidən qurulması prosesidir. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu bu məqsədlə işğaldan azad olunmuş ərazilərimizdə böyük layihələr həyata keçirir.

Müqəddəs Taxt-Tacın Dinlərarası Dialoq üzrə Dikasteriyasının prefekti, kardinal Corc Ceykob Kuvakad Azərbaycanla Vatikan arasında yüksək səviyyəli əməkdaşlıqdan məmnunluğunu ifadə edib, Roma papaları II İohann Pavel və Fransiskin ölkəmizə səfərlərinin əlaqələrimizin inkişafındakı roluna toxunub. Bu memorandumu ölkəmizdə dini azlıqlara hörmət və ehtiramın göstəricisi olan, 2011-ci il aprelin 29-da "Azərbaycan Respublikası və Müqəddəs Taxt-Tac arasında Katolik Kilsəsinin Azərbaycan Respublikasında hüquqi statusu haqqında" imzalanan sazişlə möhkəmlənmiş əlaqələrin uğurlu nəticəsi kimi dəyərləndirib. Kardinal, eyni zamanda, sənəd çərçivəsində həyata keçiriləcək layihələrin dinlərarası harmoniya və mədəni müxtəlifliyin təşviqində mühüm rol oynayacağına əminliyini ifadə edib. Memorandumun təsdiqlənməsi və imzalanmasına verdiyi dəstəyə görə Azərbaycan Prezidenti İlham Əliyevə ehtiramını bildirib.

## Heydər Əliyev Fondunun Vatikanda reallaşdırdığı çoxsaylı layihələr

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu ölkəmizin hüdudlarından kənarda multikulturalizmin təşviqində fəal şəkildə iştirak edir. Fondun dəstəyi ilə ayrı-ayrı ölkələrdə digər mədəniyyətlərə aid tarixi abidələrin bərpası buna nümunədir. Fond tərəfindən belə layihələr həmçinin Vatikanda da uğurla həyata keçirilir. 2019-cu ilin fevral ayında Heydər Əliyev Fondu ilə Müqəddəs Pyotr Kilsəsi arasında imzalanmış müqaviləyə əsasən, Müqəddəs Pyotr Kilsəsinin Bazilikasındakı "Roma Papası I Leon ilə Hun imperatoru Atillanın görüşü" barelyefinin və Vatikan Bazilikasındakı katakombalarda yerləşən "Tullius Zethus" məqbərəsinin Heydər Əliyev Fondunun maliyyə dəstəyi ilə bərpa edilməsi mühüm əhəmiyyətə malikdir. 2019-cu ilin fevral ayında Heydər Əliyev Fondu ilə Müqəddəs Taxt-Tacın Arxeologiya Şurası arasında imzalanmış müqaviləyə əsasən "Müqəddəs Komodiliya" katakombalarındakı mavzoleyin bərpası işlərinin aparılması da yüksək dəyərləndirilir. 2016-cı ildə icrasına başlanan və 2018-ci ildə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Müqəddəs Taxt-Tacın Mədəniyyət üzrə Pontifik Şurasının sədri kardinal Canfranko Ravazinin iştirakı ilə açılışı olan "Müqəddəs San Sebastian kilsə-muzey kompleksində katakombaların bərpası" layihəsi də olduqca önəmlidir. Təsadüfi deyil ki, Mehriban xanım Əliyeva Vatikanda Papa Cəngavər Ordeninin ən ali dərəcəsinə - IX Piy Ordeninin Böyük Xaçına (Dama di Gran Croce dell'ordine Piano) layiq görülüb. O, bu ordenə mədəniyyətin, o cümlədən Müqəddəs Taxt-Tac təsisatları ilə qarşılıqlı əlaqələrin inkişafına verdiyi töhfələrə görə layiq görülüb.

Ötən ilin sentyabr ayında Vatikan şəhəri dövləti üzrə qubernatorluq ilə Heydər Əliyev Fondu arasında Müqəddəs Pavel Bazilikasında bərpa işlərinə dair müqavilə imzalanıb. Sənədi Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov və Vatikan şəhəri dövləti üzrə qubernatorluğun prezidenti, kardinal Fernando Vergez Alzaqa imzalayıblar. Qeyd edək ki, Müqəddəs Pavel Bazilikası Vatikanın ən böyük abidələrindəndir və 1980-ci ildən UNESCO-nun Ümumdünya İrs Siyahısına daxildir.

*MÜBARİZ*

# Minatəmizləmə prosesində Azərbaycan nümunəsi

**Azərbaycan dünyada mina terrorundan ən çox əziyyət çəkən ölkələrdən biridir. 30 illik işğal dövründə Ermənistan xeyli sayda hərbi cinayətlər törədib ki, bunların sırasında mina terroru əsas yerlərdən birini tutur. Ermənistanın mina terroru hələ də davam edir. Qeyd edək ki, 44 günlük Vətən müharibəsindən bəri artıq 400 Azərbaycan vətəndaşı Ermənistanın mina terrorunun qurbanı olub. Bu, yalnız fiziki deyil, həm də insanların psixoloji və sosial baxımdan dərindən təsirləndiyi ciddi bir problemdir. İşğal dövründə ərazilərimizə basdırılmış minalar regionda qalıcı sülhün bərqərar olmasına ciddi təhdid yaradır. Bu təhlükənin qarşısının alınması üçün beynəlxalq əməkdaşlıq və yardımlar olduqca vacibdir. Eyni zamanda, Ermənistanın minalarla çirkləndirdiyi ərazilərdəki humanitar vəziyyətin ciddi şəkildə nəzərə alınması və Ermənistanın beynəlxalq hüquq çərçivəsində məsuliyyətə cəlb edilməsi aidiyyəti beynəlxalq qurumlar qarşısında mühüm bir öhdəlik olaraq qalmaqdadır.**

## Malayziyada "Minalardan azad dünya yolunda - Azərbaycan nümunəsi" mövzusunda beynəlxalq seminar

Hazırda azad olunmuş ərazilərdə böyük quruculuq işləri həyata keçirilir. Həmin ərazilərdə mina qurbanı olanlar da daha çox quruculuq işləri ilə məşğul olan mülki şəxslərdir. Bu fakt bərpa işlərinin daha sürətli aparılmasına ciddi əngəl törədir. Torpaqlarımız işğaldan azad edildikdən sonra Azərbaycan hökuməti həmin ərazilərdə intensiv minatəmizləmə işləri həyata keçirir. Bu işlər ölkəmizin maliyyə imkanları hesabına icra olunur. Bəzi ölkə və beynəlxalq təşkilatların dəstəyi isə kiçikdir. Önəmli cəhət ondan ibarətdir ki, illərlə davam edəcək minatəmizləmə işləri yüksək səviyyədə aparılır. Buna görə də, bir sıra ölkələr Azərbaycanın bu sahədə gördüyü işləri nümunə kimi təqdim edirlər. Malayziyanın paytaxtı Kuala-Lumpur şəhərində bu ölkənin İnsan Hüquqları Komissiyası (SUHAKAM) və Azərbaycanın Malayziyadakı səfirliyinin birgə təşkilatçılığı ilə "Minalardan azad dünya yolunda - Azərbaycan nümunəsi" mövzusunda keçirilən beynəlxalq seminar buna sübutdur. Qeyd edək ki, beynəlxalq seminarda Azərbaycanın İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının rəhbəri Aydın Səfixanlı "Minaların insan hüquqlarına təsiri" mövzusunda onlayn formatda çıxış edib. Aparat rəhbəri çıxışında minaların insan hüquqlarına təsirini beynəlxalq humanitar hüquq və beynəlxalq hüquq normaları baxımından təhlil edərək bu sahədə mövcud normaların tələblərini diqqətə çatdırıb. Vurğulayıb ki, minalar təkcə silahlı münaqişə zamanı deyil, müharibədən sonrakı dövrlərdə də mülki əhali üçün ən böyük təhlükələrdən biri olaraq qalır. Bu təhlükə insanların yaşamaq hüququna, fiziki və psixoloji sağlamlığına, azad hərəkət etmək hüququna, sağlam ətraf mühitdə yaşamağa, təhsil və əmək hüquqlarına birbaşa təsir göstərir. Ermənistanın həyata keçirdiyi mina terroru insanların həyat və sağlamlıqlarına, ətraf mühitə zərər yetirməklə bərabər, beynəlxalq humanitar hüququn və beynəlxalq insan haqlarının kobud şəkildə pozulması ilə müşayiət olunur.







## Qeyri-dəqiq mina xəritələrinin yaratdığı problemlər

Humanitar minatəmizləmənin Azərbaycan dövlətinin əsas prioritet vəzifələri sırasında olduğu, Azərbaycan Minatəmizləmə Agentliyinin (ANAMA) bu istiqamətdə mühüm fəaliyyət həyata keçirdiyi, Ermənistanın düzgün mina xəritələrini təqdim etməməsinin yaratmış olduğu çətinliklər seminar iştirakçılarının diqqətinə çatdırılıb. Bildirilib ki, Azərbaycan ombudsmanı mina qurbanlarının hüquqlarının müdafiəsi, onların sosial reinteqrasiyası və tibbi-psixoloji dəstəklə təmin olunması istiqamətində ardıcıl və sistemli fəaliyyət həyata keçirir, beynəlxalq təşkilatlara ünvanlanan hesabatlar, bəyanatlar və xüsusi məruzələr vasitəsilə Ermənistanın mina terroru nəticəsində baş verən insan hüquqları pozuntuları diqqətə çatdırılır.

Nəzərə çatdırılıb ki, minalarla çirklənmiş ərazilərdə bərpa və yenidənqurma işlərinin aparılması, otuz il müddətində hüquqları pozulmuş bir milyona yaxın keçmiş məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtması prosesi ciddi şəkildə gecikir. Bu isə həmin insanların fundamental insan hüquqlarının pozulması ilə nəticələnir. Çıxışının sonunda A.Səfixanlı beynəlxalq təşkilatların Ermənistanın mina terroruna, insan hüquq və azadlıqlarını pozması faktlarına biganə qalmaması, Azərbaycanın minatəmizləmə sahəsində həyata keçirdiyi fəaliyyətə dəstəyin verilməsi, eləcə də ölkəmizə dəqiq mina xəritələrinin təqdim olunması üçün ciddi səylərin göstərilməsi ilə bağlı çağırışlar edib.

## Minatəmizləmə prosesində müasir texnologiyalardan istifadə olunur

Onu da vurğulayaq ki, ölkəmizdə minatəmizləmə prosesində müasir texnologiyalardan istifadə olunur. ANAMA mina və döyüş sahələrinin təmizlənməsi əməliyyatları ilə yanaşı, keçmiş sursat anbarları, eləcə də poliqon ərazilərinin partlamamış hərbi sursatlardan təmizlənməsi əməliyyatlarını icra edir. Fəaliyyətini ən keyfiyyətli minaaxtaran avadanlıqlarla beynəlxalq standartlar və metodologiyalar çərçivəsində həyata keçirən qurum eləcə də, müasir texnologiyaların istifadəsinə üstünlük verir. Belə ki, torpağın 6 metr dərinliyinə qədər metal tərkibli sursatları aşkar etmək qabiliyyətinə malik avadanlıqlardan istifadə olunur. Avadanlıqların tərkibində olan 8 kanallı maqnitometr sisteminin iş prinsipi yerin maqnit sahəsindəki dəyişikliklərini qeydə almaqdan ibarətdir. Bu istiqamətdə fəaliyyət zamanı yüksək dəqiqlikli koordinat əldə etmək üçün DGPS texnologiyası tətbiq edilir. Toplanmış məlumatlar xüsusi proqramda emal olunur və sahə xəritələri yaradılır. Bu sistem mina və döyüş sursatlarının torpağın dərinliyində yüksək dəqiqliklə aşkarlanmasına imkan yaradır.

Bundan əlavə, beynəlxalq minatəmizləmə standartlarına əsasən mexaniki minatəmizləmə vasitələri piyada və tank əleyhinə mina xətlərinin aşkarlanması, ərazilərin təmizlənməsi üçün sahələrin hazırlanması, minaaxtaran itlərin dəstəyi ilə şübhəli-təhlükəli ərazilərin qısaldılması məqsədilə istifadə edilir. Minatəmizləmə metodologiyalarından biri olan mexaniki minatəmizləmə vasitələri əməliyyatların səmərəli və təhlükəsiz yerinə yetirilməsi baxımından ən başlıca vasitələr dən biridir.

Azərbaycan istehsalı olan "Revival P" piyada əleyhinə mexaniki minatəmizləmə vasitələri də 7 kiloqramlıq TNT partlayışlarına qarşı dayanıqlıdır. Texnikanın ümumi çəkisi 6,5 ton, uzaqdan idarəetmə məsafəsi 2000 metrdir. Təmizləmə dərinliyi 300 millimetr təşkil edən maşınlar sərt torpaq örtüyü olan ərazilərdə və böyük meyl bucağı altında rahat idarə edilir. Müəyyənləşdirilmiş standartlar əsasında mexaniki vasitələrin ön hissəsində yerləşdirilən toxmaqlar vasitəsilə torpağın döyəclənməsi çətin ərazi relyefində əməliyyatların aparılmasını təmin edir. Maşınların uzaqdan idarə olunması heyətin təhlükəsizliyinə zəmanət verir. "Revival P" minatəmizləmə vasitələri "Böyük Qayıdış" proqramı çərçivəsində icra edilən bərpa-quruculuq, habelə keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına təhlükəsiz geri dönüşü məqsədilə həyata keçirilən humanitar minatəmizləmə fəaliyyətinə böyük töhfə verir.

Bütün bunlarla yanaşı, beynəlxalq ictimaiyyət minatəmizləmə fəaliyyətlərinin təxirəsalınmazlığını qəbul etməli, Azərbaycanın davam edən minatəmizləmə səylərinə dəstək olmalıdır. Çünki sözügedən ərazilər minalarla həddən artıq çirkləndirilib. Müsbət haldır ki, ölkəmizin dostları bu istiqamətdə öz dəstəyini göstərir. Lakin müvafiq beynəlxalq təşkilatlar, ayrı-ayrı ölkələrin parlamentləri, insan haqlarının müdafiəsi ilə məşğul olan qurumlar Azərbaycana qarşı davam etdirilən mina terroruna biganə qalmamalıdır. Onlar Ermənistan tərəfindən törədilən hərbi və ekoloji cinayətlərə, humanitar hüquq pozuntularına sərt reaksiya verməli, dəqiq mina xəritələrinin Azərbaycana təqdim edilməsi istiqamətində bu ölkəyə ciddi təsir göstərməlidir.

*Nardar BAYRAMLI*

# Yüksək səviyyəli etimad və qarşılıqlı anlaşma

## Azərbaycan və Türkmənistan arasında imzalanan sənədlər müəyyən edilmiş hədəflərə çatmaqda mühüm rol oynayacaq

**Bakıda Azərbaycan ilə Türkmənistan arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 8-ci iclası keçirilib. Komissiyanın həmsədri, iqtisadiyyat naziri Mikayıl Cabbarov iki ölkə arasında münasibətlərin möhkəm tarixi təməl, mədəni yaxınlıq və iki qardaş xalqın qarşılıqlı hörmətinə əsaslandığını vurğulayıb. Qeyd olunub ki, dövlət başçılarımız arasında yüksək səviyyəli etimad və qarşılıqlı anlaşma əməkdaşlığın gücləndirilməsində xüsusi əhəmiyyət kəsb edir. Ölkələrimiz arasında iqtisadiyyat, ticarət, energetika, nəqliyyat və humanitar əlaqələr kimi əsas sahələri əhatə edən geniş tərəfdaşlıq gündəliyi daha da möhkəmlənir. Azərbaycanda sənaye, nəqliyyat, tikinti, ticarət və xidmət sahələrində Türkmənistan kapitallı 75 şirkət fəaliyyət göstərir ki, bu da iqtisadi-ticari mübadilələrin artmasında töhfəverici rol oynayır. Birgə Hökumətlərarası Komissiyanın həmsədri, Türkmənistanın Nazirlər Kabineti sədrinin müavini Nökərqulı Ataqulıyev Azərbaycanla müxtəlif sahələr üzrə qarşılıqlı faydalı əməkdaşlığın inkişafı üçün geniş perspektivlər olduğunu vurğulayıb, tərəfdaşlığın inkişafı istiqamətləri haqqında fikirlərini bölüşüb.**

**Tədbirdə müxtəlif sahələrdə birgə fəaliyyətin perspektivləri, iqtisadi müstəvidə ortaq maraqlara xidmət edən təşəbbüslər barədə müzakirə aparılıb. Birgə Hökumətlərarası Komissiyanın 8-ci iclasının yekunlarına dair imzalanmış protokol sənədinə əsasən, tərəflər iqtisadi-ticarət, energetika, nəqliyyat, kənd təsərrüfatı və digər sahələrdə tərəfdaşlığın genişləndirilməsinə dair niyyətlərini ifadə ediblər.**





## Ticarət dövriyyəsində əhəmiyyətli dinamika

Türkmənistanla Azərbaycan arasında siyasi-iqtisadi, sosial-humanitar və digər sahələrdə əməkdaşlıq əlaqələri son illərdə dərinləşərək yeni mərhələyə qədəm qoyub. Hər iki ölkə siyasi və iqtisadi münasibətlərə yeni dinamizm elementləri əlavə etməklə regionda sıx dostluq və qardaşlıq dəhlizinin yaradılmasına töhfə verməkdədir. Türkmənistan respublikamızla qonşu ölkə olmaqla yanaşı, həm də türkdilli dövlət kimi iqtisadi-siyasi təmasların dərinləşməsinə görə fərqlənir.

Azərbaycan-Türkmənistan hökumətlərarası komissiyanın iclaslarının keçirilməsi, hökumət üzvlərinin qarşılıqlı səfərləri, əməkdaşlığın bütün bölmələrini əhatə edən protokolun imzalanması siyasi-iqtisadi əlaqələrin inkişafı üçün dərin baza yaradıb. Hər iki dövlətin liderlərinin son illərdə intensivləşən qarşılıqlı səfərləri və imzalanan sazişlər ölkələr arasında münasibətələrin coğrafiyasının genişlənməsinə zəmin yaradıb və ikitərəfli münasibətlərin keyfiyyətinin artmasına öz bəhrəsini verməkdədir. Bu sıx iqtisadi təmasların nəticəsidir ki, 2024-cü ildə tərəflər arasında əmtəə dövriyyəsi 380 milyon dolları ötüb, cari ilin ilk yarısında isə 200 milyon dollara yaxınlaşıb.

## Xəzərdə yeni əməkdaşlıq formatı

Azərbaycan və Türkmənistan "Şərq-Qərb" nəqliyyat dəhlizinin canlandırılması və Orta Dəhlizin səmərəliyinin artırılması istiqamətində də fəal əməkdaşlıq edir. Ötən ilin yekunlarına görə, bu göstərici 2 milyon tonu, bu ilin ilk yarısında isə 1 milyon tonu keçib. Hər iki dövlət Orta Dəhlizdə daha sıx mübadilələr aparmaqla tranzit daşınmalarını daha da artırmaq potensialına malikdir.

Xəzər dənizi hövzəsində Azərbaycan limanlarına daxil olan və Türkmənistan bayrağı altında üzən 10-a yaxın (2 ədəd RoRo, 5 ədəd tanker və 3 quru yük gəmiləri) gəmi fəaliyyət göstərir. Daşımaları stimullaşdırmaq məqsədilə Türkmənistan bayrağı altında üzən gəmilərə münasibətdə liman yığımlarına Bakı Limanı tərəfindən birtərəfli qaydada güzəşt tətbiq edilib. Eyni zamanda, Bakı Gəmiqayırma Zavodunda Türkmənistan şirkətinə məxsus "NT Flagman" üçayaqlı üzən qurğunun (Lift Boat) gövdə bloklarının və ayaqlarının birləşdirilməsi, eləcə də hərəkətverici sistemləri və yükqaldırma kranlarının əsaslı təmir olunması işləri müvəffəqiyyətlə tamamlanaraq sifarişçiyə təhvil verilib.

## Azad ərazilərdə investisiya niyyətləri

İqtisadi təmaslar son illərdə yeni məzmun daşımaqla, post-müharibə dövründə yeni reallıqlara uyğun inkişaf edir və digər türk dövlətləri kimi Türkmənistanın da işğaldan azad edilmiş ərazilərdə aparılan quruculuq və sənaye intibahına töhfə vermək niyyəti var. İyulun 16-da ölkəmizə səfəri çərçivəsində azad ərazilərə baş çəkən və buradakı nəhəng quruculuqla yerindəcə tanış olan Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədovun da qənaətindən aydın olur ki, Türkmənistanın bölgədəki əlverişli biznes və investisiya mühitindən, nəqliyyat və logistika infrastrukturu imkanlarından, o cümlədən Zəngəzur dəhlizinin perspektivlərindən faydalanmaq marağı var.

Azərbaycan və Türkmənistanın sıx tərəfdaşlığı Xəzərdə birgə neft-qaz sahəsində nümunəvi platformaya çevrilməkdədir. İki il əvvəl Aşqabadda imzalanan "Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında Xəzər dənizində "Dostluq" yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənməsi və mənimsənilməsi haqqında Anlaşma Memorandumu" birgə əməkdaşlıq üçün möhkəm təməl qoyub və bu istiqamətdə fəal işlər aparılır. Həmçinin Azərbaycan və Türkmənistan qardaş Türkiyə ilə birlikdə regionda yeni enerji formatı yaradıb. Üç dövlətin birgə razılaşmasına əsasən, 2025-ci il martın 1-dən etibarən Türkmənistan qazı Azərbaycandan keçməklə Türkiyəyə tədarük olunur, BOTAŞ və "Türkmənqaz" arasında əldə edilmiş razılaşmaya əsasən, Türkmənistan qazı Azərbaycan üzərindən Türkiyəyə çatdırılır.

## Türkmən qazının Azərbaycan üzərindən Türkiyəyə nəqli regionun geoiqtisadi xəritəsini dəyişdirir

Türkmən qazının Azərbaycan üzərindən Türkiyəyə nəqli geoiqtisadi əhəmiyyət daşımaqla Azərbaycanın tranzit ölkə kimi həm mövqeyini artıracaq, həm də tranzit gəlirləri əldə etməsinə dərin zəmin yaradır. Bu layihə Bakı və Ankaranın iqtisadi inteqrasiyasına daha yeni şaxə əlavə etməklə iki ölkənin iqtisadi zəncirlərinin birləşməsində əlavə təhlükəsizlik amilinə çevriləcək. Digər əsas məqam Türkmənistan-Azərbaycan-Türkiyə enerji ittifaqının formalaşmasıdır. Hər 3 qardaş ölkə bu starteji qərarın gerçəyə çevrilməsi ilə Türk ailəsinin iqtisadi inteqrasiya proqramının əhatəsini daha da genişləndirmiş olacaq. Həmçinin Türkmənistanın enerji ehtiyatlarının regionun ən nəhəng tranzit - Şərq-Qərb dəhlizi olan Bakı-Tbilisi-Ceyhan kəməri ilə ixrac etmək imkanı da yaranıb. Beləliklə, Xəzərin enerji ehtiyatlarının Avropaya nəqlində Bakı-Aşqabad-Ankara konsorsiumunun yaradılması region üçün mühüm geosiyasi məzmun kəsb etməklə bərabər, Xəzərin karbohidrogen resurslarının Qərbə nəqlinə təminat verərək bölgədə təhlükəsizlik dəhlizinə çevrilmiş olacaq.

Beləliklə, Azərbaycan və Türkmənistan arasında çoxşaxəli əməkdaşlıq gündəliyi üzrə davam etdirilən məsləhətləşmələr, xüsusən də Birgə Hökumətlərarası Komissiyanın iclasları və imzalanan sənədlər müəyyən edilmiş hədəflərə çatmaqda mühüm rol oynayacaq.

*ELBRUS CƏFƏRLİ*




# Azərbaycan haqq yolundan dönməyəcək!

## Böyük Fransanın kiçik məsuliyyəti

Son illərdə ölkəmizə qarşı bir növ “səlib” yürüşünə keçən Fransanın siyasi dairələrinin, o cümlədən parlamentinin birbaşa Yelisey Sarayından alınmış təlimatlar əsasında anti-Azərbaycan və islamofob fəaliyyəti səngimir. Belə bədnam fəaliyyətin davamı olaraq iyulun 22-də Fransa Milli Assambleyasındakı “Sağ Respublikaçılar” qrupunun rəhbəri və Fransa-Ermənistan dostluq qrupunun sədri LoranVokye (LaurentWauquiez), habelə həmin dostluq qrupunun sədr müavini Aleksandr Marten (Alexandra Martın) tərəfindən “Ermənistanla strateji tərəfdaşlığı imzalamaqla onu Azərbaycanla sülh səylərində dəstəkləmək və Azərbaycanda saxlanılan Artsax siyasi məhbuslarının azad edilməsini tələb etmək məqsədini daşıyan”Avropa Qətnaməsi təşəbbüsünü irəli sürüblər. Qətnamə layihəsində postmüharibə dövrünün reallıqları, sülh prosesi və digər məsələlərlə bağlı absurd iddialar ortaya qoyulur və sonda Milli Assambleya tərəfindən Azərbaycanın əleyhinə yönəlik 7 bənd irəli sürülür. Beləliklə, aydın şəkildə görünür ki, Yelisey Sarayı yenə də öz ampluasındadır və qərəzçilik mövqeyindən geri çəkilmək istəmir.

Təqdim olunan “sənəd”də Fransanın məsuliyyətindən bəhs olunur. İlk baxışda elə təsəvvür yarana bilər ki, qətnamə layihəsinin müəllifləri Fransanın məsuliyyətini daha geniş masştabda, deyək ki, bu ölkənin tarixi ənənələrini və Avropanın yeni çağırışlarını nəzərə almaqla dəyərləndirəcəklər. Axı Makron komandasının üzvləri bir qayda olaraq Fransanın Avropa İttifaqı (Aİ) məkanının lider dövləti olduğu ambisiyalarından çıxış edirlər. Bir anlığa bu ambisiyaları qəbul edək. Belə olan halda Yelisey Sarayının məsuliyyəti də Aİ məkanının çoxsaylı problemləri anlamında başa düşülür. Lider dövlət gərək drayver qüvvə kimi bütün Avropanı öz arxasınca aparsın, 27 üzv dövlətə nümunə göstərsin. Bu gün “qoca qitə”nin həyatında bir çox istiqamətlərdə böhran yaşanır, insanlar çətinliklərlə üzləşirlər. Elə bugünlərdə problemlər məngənəsində boğulan Avropa adından Avropa Komissiyası Amerika Birləşmiş Ştatları ilə “qoca qitə” üçün bir sıra ağır şərtlər altında gömrük tarifləri razılaşmasını imzalamaq məcburiyyətində qaldı.

## Getdikcə cılızlaşdırılan ölkə...

Lider dövlətin məsuliyyəti dedikdə bütün bu kimi məsələlər başa düşülür. Bəhs olunan qətnamə layihəsinin müəlliflərinə görə isə Fransanın məsuliyyəti “Ermənistanla insan hüquqları, təhlükəsizlik, inkişaf və demokratiyaya əsaslanan strateji tərəfdaşlığı irəlilətməkdə”dir. Beləliklə, onlar böyük Fransanın məsuliyyətini kiçik Ermənistana himayədarlıq etməkdə görürlər və bununla da ölkələrini cılızlaşdırırlar.

## Fransa parlamentinin üzvlərinin ölünü diriltmək qabiliyyəti var?

Qətnamədə qondarma məfhumlara (“Dağlıq-Qarabağ respublikası”, “artsax”) yer verilir, bu torpaqlardan köçmüş erməni əhalisinin vəziyyəti ilə əlaqədar çoxsaylı narahatlıqların olduğu vurğulanır. Bundan əlavə, Azərbaycanın Ermənistanın mövcudluğunu inkar etdiyi, bunun Azərbaycanın “artsax”da və digər nəzarət etdiyi bütün ərazilərdə erməni əhalisini məhv etmək siyasətinin davamı olduğu bildirilir. Həmçinin, Azərbaycanın dini, mədəni və tarixi irsi məhv etdiyi vurğulanır.

Yenə də başdan ayağa yalan, uydurma ittihamlar ortadadır. Başa düşülmür: Avropanın lider dövləti ambisiyalarından çıxış edən bir ölkənin parlamentariləri informasiya axınından bu qədərmi geridə qalırlar? Əvvəla “Dağlıq Qarabağ” və yaxud “artsax” adında hansısa bir dövlət qurumu ümumiyyətlə olmayıb. Bu, zamanında Ermənistan rəhbərliyinin və separatçıların uydurduqları bir mif idi.

Qürurlu, ləyaqətli və məsuliyyətli dövlət olan Azərbaycan isə işğal faktını qəbul etmədi və 44 günlük müharibədə şanlı Zəfər qazanmaqla beynəlxalq hüququ və tarixi ədaləti öz gücünə təmin etdi. Dövlətin məsuliyyəti belə olar. Yalançı təəssübkeşlik və yalançı məsuliyyət heç kimə lazım deyil. Fransa parlamentinin təmsilçiləri istəsələr də, istəməsələr də o reallığı qəbul etməlidirlər ki, “Dağlıq Qarabağ respublikası”, “artsax” ümumiyyətlə olmadığı kimi, artıq Dağlıq Qarabağ problemi də yoxdur. Uydurma erməni mifləri puç olub, tarixin zibilliyində qalıb. Fransa parlamentarilərinə xatırlatmaq istərdik ki, bu reallığı artıq Ermənistan rəhbərliyi də qəbul etmək məcburiyyətində qalıb. Ermənistanın baş naziri Nikol Paşinyan Dağlıq Qarabağ da daxil olmaqla Azərbaycanın ərazi bütövlüyünü tanıdığını dəfələrlə açıq mətnlə ifadə edib. Bu yerdə sual edirik: Fransa parlamentinin üzvlərinin ermənilərdən artıq ermənilik etmələrinə nə hacət var? Əgər Fransa parlamentinin üzvlərinin ölünü diriltmək qabiliyyətləri varsa, bu, başqa bir məsələdir.

## Mayası erməni xəmiri ilə yoğrulanlar

Bədnam qətnamə layihəsinin əsas müəlliflərindən birinin LoranVokye olduğunu yuxarıda qeyd etdik. LoranVokyenin simasında Yelisey Sarayından gələn “ali təlimatın” icraçısı Fransada iqtidar koalisiyanın üzvü olan “Respublikaçılar” Partiyasıdır. O, həmin L.Vokyedir ki, 2023-cü ildə “Qarabağın blokadaya alınmasını” əsas gətirərək, guya, erməni sakinlərə yardım göstərilməsinə çağırış edən kollektiv müraciətin təşəbbüskarlarından biri olmuş, qondarma rejimin “xarici işlər naziri” SergeyKazaryanla görüşmüşdür. O, hətta Bakıda COP29-un keçirilməsinə qarşı belə kollektiv müraciətə də imza atmışdır. Anti-Azərbaycan əleyhinə apardığı fəaliyyətə görə,o, Fransanın erməni icması tərəfindən “Cəsarət” medalı ilə təltif olunmuşdur.



L.Vokye kimi Azərbaycanın əleyhinə “humanitar tok-şou” aparan və digər bu kimi təlimatların icraçıları qismində Fransanın İl-dö-Frans regionunun prezidenti ValeriPekressi (ValeriePecresse) və Paris şəhərinin meri An İdalqonu (AnneHidalgo) da xüsusi vurğulamaq yerinə düşər. V.Pekress Azərbaycanın işğal altında olan ərazilərinə səfər edib, dəfələrlə ölkəmizin əleyhinə bəyanatlar səsləndirib, A.İdalqo isə 2023-cü ildə qondarma rejim üçün humanitar konvoyu Azərbaycan sərhəddindən keçirməyə çalışıb və Qarabağdan çıxanlara fəxri vətəndaşlıq verib. Parisin mərkəzində qondarma “Artsax respublikasının nümayəndəliyi” bu gün də fəaliyyət göstərir.

Bu məlumatlar loren vokyelərin dosyelərinə, onların həyat yollarına işıq salır. Belələrini “mayası erməni xəmiri ilə yoğrulanlar”adlandırmaq daha doğru olardı.

## Qarabağdan zorla çıxarılan azərbaycanlılar və könüllü köç edən ermənilər

Parlamentarilərin Azərbaycanın etnik ermənilərə qarşı diskriminasiya həyata keçirdiyi, erməni tarixi abidələrini məhv etdiyi barədə səsləndirdikləri iddiaların da hansısa bir əsası yoxdur. Görəsən, insan haqlarından dəm vuran parlamentarilər nə üçün ötən əsrin doxsanıncı illərinin əvvəllərində azərbaycanlıların doğma yurd yerlərindən ermənilər tərəfindən amansızlıqla qovulduqlarını xatırlamırlar, bu barədə susmağa üstünlük verirlər? O zaman azərbaycanlılar sözün əsl mənasında humanitar fəlakətlə üzləşmişdilər, dinc insanlar kütləvi şəkildə soyqırımına məruz qalırdılar. Bununla bağlı materiallar internet resurslarında var. Parlamentarilər yaddaşlarını təzələmək üçün həmin materiallarla tanış ola bilərlər.

Qarabağdan erməni əhalinin köçü isə onlara heç bir təzyiq göstərilmədən, könüllülük əsasında baş verdi. Bəlkə də, həmin insanlar zamanında Qarabağda azərbaycanlılara qarşı törətdikləri insanlıq əleyhinə cinayətlərin mənəvi və hüquqi məsuliyyətindən qurtulmaq üçün onlara məxsus olmayan ərazilərdən çıxıb getdilər. Azərbaycan xalqı isə yenə də humanizm mövqeyi ortaya qoydu, Qarabağı tərk edən ermənilərə hər hansı bir təzyiq göstərilmədi.

Parlamentarilər erməni abidələrinin məhv edilməsindən danışırlar. Saxtakarlığın, yalanın da bir həddi olar. Otuz illik işğal dövründə ermənilər İslam dininə aid tarixi abidələrdə mal-heyvan saxlamaqla onları təhqirlərə məruz qoyublar. Qarabağda olan 67 məsciddən 65-i tamam dağıdılıb. Postmüharibə dövründə isə qalib Azərbaycan işğaldan azad edilmiş ərazilərdə həm İslam dininə, həm də digər mədəniyyətlərə aid tarixi abidələrin bərpası ilə bağlı layihələr həyata keçirir və burada hər hansı bir ayrı-seçkiliyə yol verilmir.

## Parlament, yoxsa məhkəmə?

Bədnam qətnamə layihəsində həmçinin, Azərbaycan tərəfindən saxlanılan “siyasi məhbuslar olan erməni hərbi, siyasi və mülki şəxslər” üzərində keçirilən məhkəmə proseslərinin guya “qondarma” olduğu iddia edilir, onların dərhal azad olunması tələbi irəli sürülür. Bu qəbildən olan iddialardan o qənaət hasil olur ki, Milli Assambleyanın təmsilçiləri parlament üzvləri olduqlarını yaddan çıxarıblar və özlərini bir növ məhkəmə hakimləri qismində təsəvvür edirlər.

Hazırda Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, David İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesi davam edir. Adları çəkilən şəxslərin və qeyrilərinin bundan sonra həyatlarını harada - azadlıqda və yaxud həbsxanalarda davam etdirəcəklərinə qərar vermək məhkəmənin müstəsna səlahiyyətidir. Fransalı parlamentarilər nə üçün unudurlar ki, hazırda Bakıda məhkəmələri gedən şəxslər zamanında Azərbaycana qarşı dövləti cinayətlərə yol veriblər. Onlar respublikamızın ərazi bütövlüyünü və Konstitusiya quruluşunu açıq-aşkar pozublar. Məhkəmədə çoxsaylı şahidlər işğal illərində separatçıların onlara verdikləri əzab-əziyyətləri xatırlayırlar. Törədilən müharibə cinayətləri dəhşət saçır. “Siyasi məhbus” adlandırılan şəxslər planlı şəkildə ərazilərimizi minalayıblar. Bu gün də insanlar mina terrorunun qurbanı olurlar. “Siyasi məhbuslar” Qarabağda yaradılan kütləvi qəbiristanlıqlara görə məsuliyyət daşıyırlar. Həmin qəbiristanlıqlarda yüzlərlə azərbaycanlı diri-diri basdırılıb. Bu kimi qəddarlıqların “siyasi məhbus” anlayışı ilə hansısa bir əlaqəsi varmı? Görəsən, Yelisey Sarayı humanistlik göstərib Fransaya qarşı dövləti cinayətlər törətmiş çaniləri azadlığa buraxardımı?

Parisdə rahat kreslolarda əyləşən parlamentarilərə bir xatırlatmanı da etmək yerinə düşər: Bu gün Ermənistan rəhbərliyi məhkəmə qarşısında əyləşən separatçıların azadlığa buraxılması barədə hansısa bir səviyyədə müzakirələr aparmır. Yəni, bu sırf məhkəmə qaydasında həllini tapacaq bir məsələdir. Və bunu İrəvanda da anlayırlar. Yaxşı olardı ki, Fransadan olan parlamentarilər də onlara aid olmayan məsələlərə qarışmasınlar. İndiyədək Fransa Senatında və Milli Assambleyasında mahiyyət etibarı ilə adi kağız parçasından heç nə ilə fərqlənməyən çoxsaylı qətnamələr qəbul olunub. Belə qətnamələrlə Azərbaycanı haqq yolundan döndərmək mümkün olubmu? Əsla! Heç bir şübhə yoxdur ki, Milli Assambleyaya təqdim olunan növbəti qətnamənin də taleyi oxşar olacaq - onlar da heç mürəkkəbi qurumamış toz basmış arxivlərdə yer alacaq.

***Mübariz ABDULLAYEV***

# Afrika ilə Fransa arasındakı postkolonial paradoks: imperial mirasın yükü və yeni geosiyasi oyanış

Afrika qitəsi XXI əsrdə öz strateji dəyərini yalnız enerji və xammal ehtiyatları ilə deyil, həm də demoqrafik potensialı, yüksələn regional təşəbbüsləri və qlobal nizamın transformasiyasında oynadığı rolu ilə təsdiqləyir. Bu transformasiya çərçivəsində Afrika dövlətlərinin suveren qərarvermə hüququ uğrunda apardığı mübarizə xüsusilə Fransanın köhnə kolonial çərçivədə saxladığı təsir sistemlərinə qarşı əsl intellektual və siyasi dirənişə çevrilib. Keçmişin kolonial imperiyası kimi Fransa bu gün regionda güc proyeksiyası uğrunda son dərəcə qeyri-sabit, bəzən də xaotik addımlar ataraq yeni reallıqları qəbul etməkdə çətinlik çəkir.

Əslində, Fransa-Afrika münasibətlərinin təməlində duran “Françafrik” (Françafrique) doktrinası XIX əsrin ortalarından XX əsrin sonuna qədər Fransanın qitə ölkələrində yürütdüyü “yumşaq hökmranlıq” modelinin institusionallaşmış formasıdır. Bu model özündə təkcə iqtisadi asılılığı yox, siyasi muxtariyyətin de-fakto ləğvini və regionda Fransa maraqlarına uyğun sabitliyi qorumaq üçün hərbi müdaxilə mexanizmlərinin aktiv saxlanmasını da ehtiva edirdi. Hərbi baza yerləşdirmələri, yerli elitaların korrupsiyalaşdırılması və valyuta nəzarəti (xüsusilə CFA frankı sistemi) vasitəsilə Paris uzun müddət Afrika dövlətlərini öz geosiyasi orbitində saxlamağı bacardı.

Lakin XXI əsrdə bu model qlobal siyasi rasionallıqla, eləcə də region xalqlarının yüksələn milli şüuru ilə toqquşdu. Fransa artıq neokolonial dominantlığı texnokratik maskalarla gizlədə bilməyəcək qədər açıq mövqedədir. Mali, Burkina-Faso və Niger kimi ölkələrdə baş verən siyasi çevrilişlər, onların ardınca Fransanın diplomatik və hərbi personalının qovulması Parisin siyasi nüfuzunun iflasa uğramasının yalnız başlanğıcıdır.

Bu çöküş həm də ideoloji iflasa işarə edir. “Azadlıq, bərabərlik və qardaşlıq” şüarı ilə özünü Qərbin maarifçi dayağı kimi təqdim edən Fransa, əslində, Afrika üçün uzunmüddətli iqtisadi istismarın və siyasi manipulyasiyanın sinoniminə çevrilib. 1960-cı illərdə nominal müstəqillik əldə etmiş ölkələr gerçək müstəqilliyini XXI əsrin ikinci onilliyində qazanmağa başlayıb. Bu isə Fransa üçün böyük reputasiya böhranına gətirib çıxarıb.

Əgər əvvəllər bu proseslər periferiyadan mərkəzə doğru səssiz şəkildə axırdısa, bu gün artıq Fransa daxilində də ciddi rezonansa səbəb olur. Paris küçələrində baş verən sosial narazılıqlar, etnik qarşıdurmalar və multikulturalizmin uğursuzluğa düçar olması məhz postkolonial




stresin daxili əksidir. Afrika əsilli vətəndaşların Fransadakı diskriminasiya təcrübələri onların dövlətə qarşı inamsızlığı ilə birləşərək, kolonial keçmişin sosial kodlarının hələ də nə qədər canlı olduğunu göstərir.

Bütün bu kontekstdə Fransanın Cənubi Qafqaz və Mərkəzi Asiya kimi regionlarda yürütməyə çalışdığı riyakar geosiyasi strategiyalar onu yalnız beynəlxalq aləmdə deyil, həm də region dövlətlərinin nəzərində etibarsız və qorxaq aktora çevirir.

Fransa özündə artıq yalnız keçmiş imperiyanın simvolik zərifliyini yox, strateji zəifliyini də daşıyır. Onun son illər Cənubi Qafqaza, xüsusilə Azərbaycana qarşı birtərəfli və qeyri-obyektiv ritorikası Parisin yeni güc mərkəzlərini qəbul etməməsinin əks-sədasıdır.

**Azərbaycanın yüksələn qlobal rolu: ədalətli siyasətin nümunəsi**

Əvəzində Azərbaycan beynəlxalq münasibətlər sistemində balanslaşdırılmış, rasional və suveren mövqeyi ilə seçilən bir aktora çevrilib. Öz torpaqlarını işğaldan qurtarandan sonra nümayiş etdirdiyi strateji soyuqqanlılıq, postmüharibə reallıqlarının tənzimlənməsi prosesində oynadığı konstruktiv rol və enerji diplomatiyası vasitəsilə Avropa üçün alternativ təchizat marşrutları təklif etməsi Bakının qlobal sistemdə mühüm oyunçuya çevrildiyini sübuta yetirir. Azərbaycanın ev sahibliyi etdiyi COP-29 bu prosesin kulminasiya nöqtəsidir. Bu tədbir yalnız iqlim məsələlərinin müzakirəsi üçün platforma deyil, həm də Azərbaycanın beynəlxalq ictimaiyyətə verdiyi mesajın gücüdür: bu ölkə həm regional sabitliyin, həm də qlobal dayanıqlı inkişafın memarlarından biridir. Paris bu tədbirə qərəzli yanaşmaqla əslində müasir dünyanın dəyişən reallıqlarını inkar edirdi.

Fransanın Cənubi Qafqazda erməni diasporu ilə birgə yaratmağa çalışdığı siyasi intriqalar Azərbaycan üçün yalnız siyasi mübarizə deyil, həm də ideoloji müstəvidə bir haqq savaşıdır. Azərbaycanın dünyaya bəyan etdiyi əsas prinsip - beynəlxalq hüquqa hörmət, ərazi bütövlüyü və regional əməkdaşlığa çağırış hazırkı multipolyar dünyada yüksələn normativ dəyərlərdir. Bu mənada Azərbaycan nəinki öz regionunda, həm də qlobal müstəvidə Fransa kimi dövlətlərin keçmişə əsaslanan neoimperial ambisiyalarına qarşı alternativ inkişaf modelidir.

Nəticədə qeyd etmək olar ki, Fransa-Afrika münasibətlərinin bugünkü böhranı təkcə bir imperiyanın süqutu deyil, üstəlik, yeni geosiyasi reallığın formalaşmasıdır. Parisin öz kolonial keçmişi ilə hesablaşmaması və müasir dünya nizamını anlamaqda nümayiş etdirdiyi zəiflik onun regional və qlobal təsir gücünü sistemli şəkildə sıradan çıxarır. Əvəzində isə Azərbaycan kimi yüksələn dövlətlər müasir beynəlxalq hüququn və ədalətli multilateralizmin əsas daşıyıcılarına çevrilir. Əgər XXI əsrin əvvəlində Fransa “sivil missiya” adı altında Afrika xalqlarına nümunə olmaq istəyirdisə, bu gün artıq Azərbaycan regional liderliyi, sülh çağırışları və ekoloji təşəbbüslərlə qlobal cəmiyyət üçün real modelə çevrilib. Bu, tarixin ironiyası deyil, ədalətin gec də olsa, yerini tapmasıdır.



***Kəramət QƏNBƏROV,***
***beynəlxalq hüquq üzrə ekspert***

# Güzəştli ipotekada yeni fürsət

## İpoteka və Kredit Zəmanət Fondunun kredit portfelinin artırılması vətəndaşların və biznesin maliyyə təminatını artıracaq

Məlum olduğu kimi, dövlət başçısının imzaladığı müvafiq fərmana əsasən, İpoteka və Kredit Zəmanət Fondunun nizamnamə kapitalı 85 milyon manat artırılaraq 1 milyard 153 milyon manata çatdırılıb. Nizamnamə kapitalının artırılması güzəştli ipoteka kreditlərinin maliyyələşdirilməsini təmin edən maliyyə portfelinin təxminən 8-9 faiz böyüməsinə səbəb olmaqla, fondun imkanlarını daha da genişləndirir. Fondun nizamnamə kapitalı artdıqca daha çox ipoteka kreditlərinin təklifi mümkün olur və güzəştli şərtlərlə kreditlərin əldə edilməsi və əlçatanlıq artır, nəticədə daha çox vətəndaş güzəştli ipoteka kreditindən faydalana bilir.

### 3,5 milyard manatdan çox kreditləşmə

Son illərdə İpoteka və Kredit Zəmanət Fondunun nizamnamə kapitalının artırılması siyasəti yürüdülür və dövlət büdcəsindən bu sahəyə ayrılan vəsaitlər sosial ipoteka kreditlərinin əhatəliliyinin daha da artırılmasına xidmət edir. Xüsusən də güzəştli şərtlərlə kredit əldə edənlər üçün imkanlar artır ki, bu maliyyə təchizatı iqtisadi və sosial təyinatlı kreditlərinin portfelini genişləndirir. İpoteka kreditləri sosial məzmun daşımaqla vətəndaşların mənzil kreditləri əldə etməsini motivasiya edir və hər il bu sosial zəncirə qoşulanların sayı da çoxalır. Qeyd edək ki, indiyədək fond tərəfindən 54 min 918 ipoteka krediti verilib. Verilmiş ipoteka kreditlərinin məbləği isə 3 milyard 560 milyon manatdan çoxdur. Kreditlərin təxminən 1 milyard manatı dövlət dəstəyinə ehtiyacı olan xüsusi kateqoriyaya aid şəxslərə verilmiş güzəştli ipoteka kreditləri təşkil edir. Həmin kateqoriya qrupunda son illərdə hərbi qulluqçulara verilən güzəştli ipoteka kreditinin maliyyələşdirilməsi dinamikası daha çox artır və onlara maliyyə dəstəyi göstərən müvəkkil bankların sayı da çoxalır. Ümumilikdə, ipoteka kreditlərindən faydalananların 68 faizi gənclər və gənc ailələrdir.

### Kiçik və orta biznes üçün zəmanət subsidiyaları

İpoteka kreditlərinin digər mühüm prioriteti biznesin maliyyə təminatını yaxşılaşdırmaqdır. Belə ki, iqtisadiyyatın tarazlı və dayanıqlı inkişafına nail olmaq, maliyyə sahəsində risklərin bölüşdürülməsinə əsaslanan kreditləşdirmə sistemini formalaşdırılmaq və biznesin kredit resurslarına çıxışını genişləndirmək məqsədilə 2018-ci ildən etibarən yeni maliyyə zəmanəti mexanizmi yaradılıb. Həmin mexanizm çərçivəsində sahibkarların investisiya layihələrinin güzəştli şərtlərlə maliyyələşdirilməsində zəmanət hüquqları İpoteka və Kredit Zəmanət Fonduna (İKZF) həvalə edilib. Fond sahibkarlıq subyektlərinə dövlət tərəfindən zəmanət və subsidiyaların verilməsində tənzimləyici rol oynayaraq kreditlər üzrə hesablanmış faizlərin bir hissəsini subsidiyalaşdırır.



Biznes üçün yeni maliyyə dəstəyi aləti hesab edilən bu mexanizmin tətbiqi sayəsində sahibkarlıq subyektlərinin daha inamlı və etibarlı şəkildə maliyyələşdirməsi təmin edilib.

2024-cü il oktyabrın 1-nə olan məlumata görə, indiyədək müvəkkil banklar tərəfindən İpoteka və Kredit Zəmanət Fondunun (İKZF) zəmanəti ilə sahibkarlara güzəştli şərtlərlə 500 milyon manatdan artıq kredit verilib ki, bunun da 65 milyon 155 min manatı yanvar-sentyabr aylarını əhatə edir. Bu mexanizm çərçivəsində bugünədək zəmanət verilmiş kreditlərin orta müddəti 30 ay, İKZF tərəfindən sahibkarlıq kreditləri üzrə hesablanmış faizlərin bir hissəsinə subsidiyanın verilməsi hesabına sahibkarların ödəyəcəyi kreditlər üzrə faktiki faiz dərəcəsi 6 faiz, bir sahibkara ayrılan kreditin məbləği isə 30 min manatdan 5 milyon manatadək təşkil edib.

### Fondun biznesə dəstəyi sayəsində 6500 yeni iş yeri yaradılacaq

Zəmanətli kreditlərin yönəldildiyi əsas sahə sənaye məhsullarının istehsalı və emalı, kənd təsərrüfatı və qida sənayesidir. Digər əsas sahələr isə tikinti, turizm və infrastrukturun inkişaf etdirilməsi ilə bağlı sahələr, maşın və avadanlıq istehsalı, ticarət və xidmət sektorlarıdır. Biznesə kredit zəmanətinin verilməsi sahibkarlığın maliyyələşdirilməsinə, ölkə iqtisadiyyatının inkişafına, yeni iş yerlərinin açılmasına, sahibkarlıq sahələrinin genişlənməsinə və dövlət büdcəsinə vergi daxilolmalarının artmasına səbəb olur. Zəmanət və faiz subsidiyası hesabına sahibkarlara ayılan kreditlər vasitəsilə maliyyələşən layihələrdə 6500 yeni iş yerinin yaradılması nəzərdə tutulub.

Hazırda fond 17 müvəkkil təşkilatı vasitəsilə sahibkarların manatla aldıqları kreditlər üzrə zəmanətlərin və kredit öhdəlikləri üzrə subsidiyaların verilməsini həyata keçirir.

### Kredit çeşidlərinin artırılması

Ümumilikdə, biznesin maliyyə əlçatanlığının təmin edilməsi məqsədilə dövlətin güzəşt siyasətinin əsas məqsədi qeyri-neft sənaye sahələrinin inkişafı, kənd təsərrüfatı sahəsinin inkişafı üzrə istehsal yönümlü və logistik xidmət layihələrinin dəstəklənməsi, anbar komplekslərinin qurulması, turizmin inkişafında dövlətin dəstəkləyici rolunun artırılması, balıqçılıq və akvakultura təsərrüfatlarının yaradılması, "yaşıl", rəqəmsal inkişaf və innovasiya yönümlü sahələrə maliyyə qayğısının göstərilməsindən ibarətdir.

Ölkədə formalaşmış kredit zəmanət mexanizminin təhlili göstərir ki, mexanizm kiçik və orta biznes sahəsində maliyyələşdirilməni asanlaşdırır, bank və digər kredit resurslarından fəal istifadə etməyə imkan yaradır və kredit risklərinin azaldılmasına səbəb olur.

Bu baxımdan fondla sahibkarlar arasında maliyyə vasitəçiliyinin daha da yaxşılaşdırılması üçün yeni inkişaf konsepsiyası hazırlanıb. Qarşıdakı strateji dövr ərzində kredit mexanizminin həm kəmiyyət, həm də keyfiyyət baxımından yaxşılaşdırılması, resurs əhatəliliyinin və təqdim edilən kredit çeşidlərinin artırılması hədəf kimi müəyyən edilib.

Beləliklə, Kredit Zəmanət Fondunun kredit portfelinin artırılması həm ipoteka kreditləri almaq istəyən vətəndaşlar üçün əlavə maliyyə resuslarının formalaşmasına, eyni zamanda, kiçik və orta biznesin dayanıqlı maliyyə ehtiyaclarının təmin edilməsinə səbəb olacaq.

***E.CƏFƏRLİ***

# "Startap" şəhadətnaməli biznes subyektlərinin sayı artır

## 215 mikro və kiçik sahibkar şəhadətnamə ilə təmin edilib

Azərbaycanda rəqəmsal iqtisadiyyatın müasir atributlarından biri olan startap ekosistemi biznes ideyalarının mükəmməl aləti kimi öz imkanlarını artırmaqdadır. "Startap Azərbaycan" platforması startaplar, investorlar, maliyyə fondları və gənc biznes komandasının təşviqinə səbəb olmaqdadır. Bunun nəticəsidir ki, uğurlu biznes layihəsi kimi startaplar kiçik və orta biznesin (KOB) marağında ön plana çıxır. 2025-ci ilin birinci yarısında 54 mikro və kiçik sahibkar "Startap" şəhadətnaməsi almaq üçün Kiçik və Orta Biznesin İnkişafı Agentliyinə (KOBİA) müraciət edib ki, Ekspertlər Şurası 27 biznes təmsilçisinin "Startap" şəhadətnaməsi ilə təmin edilməsinə razılıq verib. Şəhadətnamə almış sahibkarların 23-ü hüquqi, 4-ü fiziki şəxsdir. Onlardan 23-ü mikro, 4-ü isə kiçik sahibkarlıq subyektidir. "Startap" şəhadətnaməsi almış KOB subyektlərinin 20-si Bakı şəhərində, 7-si isə regionlarda fəaliyyət göstərir. Şəhadətnamə almış sahibkarların 4-ü qadındır.

"Startap" şəhadətnaməsi almış layihələr fintek, təhsil, ictimai iaşə, İKT, sənaye, turizm, biznesin rəqəmsallaşması, elektron ticarət sahələri üzrə innovativ həlləri özündə ehtiva edən mobil tətbiq və onlayn xidmətlərdir. Ümumilikdə isə indiyədək 215 mikro və kiçik sahibkarlıq subyektinə "Startap" şəhadətnaməsi verilib.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" istiqaməti üzrə hazırlanmışdır

### Güzəşt və motivasiyalar yerli və xarici investorların marağını artırır

Qeyd edək ki, biznesə "Startap" şəhadətnaməsinin verilməsinə 2021-ci ildən başlanılıb. "Startap" şəhadətnaməsi KOB subyektlərini şəhadətnaməni aldıqları tarixdən etibarən innovasiya fəaliyyətindən əldə etdikləri gəlirlər üzrə mənfəət və ya gəlir vergisindən 3 il müddətinə azad edib. Vergi Məcəlləsinin 102.1.31.-ci maddəsinə əsasən, "Startap" şəhadətnaməsi olan fiziki şəxs şəhadətnaməni aldığı tarixdən 3 il müddətinə və həmin startap şəhadətnaməsi üzrə innovasiya fəaliyyətindən əldə etdikləri gəlirləri vergidən azaddır. Həmçinin, startaplar üzrə texnoloji avadanlıqlar və maddi-texniki güzəştlər və təşviqlər də bu sahədə motivasiyaedici mühit yaradıb.

Startapların nüfuz etdiyi yüksək texnologiyalar parklarında da xüsusi aktivlik nəzərə çarpmaqdadır. Texnopark rezidentlərinin sayının 96-ya yüksəlməsinə səbəb olub. Qeyd edək ki, Vergi Məcəlləsində edilmiş dəyişikliklərə və 2023-cü il yanvarın 1-dən qüvvəyə minən yeni qaydalara əsasən, texnologiyalar parkının rezidenti kimi texnologiyalar parkından kənar sistem inteqrasiyası, proqram təminatının hazırlanması və inkişaf etdirilməsi fəaliyyətini həyata keçirən şəxslər qeydiyyata alındıqları hesabat ilindən başlayaraq 10 il müddətinə mənfəət, gəlir əmlak vergiləri, dividendlər, texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalına münasibətdə ƏDV-dən azad edilib. Vergi güzəştləri onların həm texnopark, həm də texnoparkdan kənar fəaliyyətinə şamil edilir.




Nəticədə bu güzəşt və motivasiyalar yüksək texnologiyalar və innovasiyalar sektorunda çalışan gənc biznes icmasının sistem inteqrasiyası, proqram təminatı, süni intelket məhsulları üzrə inkişafında əlverişli münbit mühit yaradır. Eyni zamanda, "Startap" şəhadətnaməsi layihəyə yerli və xarici investorların marağını artırır, xarici bazarlara çıxışını asanlaşdırır.

Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin yeni rəqəmsal texnologiyaların tətbiqində verdiyi dəstək, o cümlədən startap platformasına motivasiyaları da yeni biznes nəslinin formalaşmasında mühüm rol oynayır. Startap ailəsi yaxın xarici tərəfdaşları ilə süni intellekt və maşınların öyrənilməsi, əşyaların interneti və şəhər transformasiyası, rəqəmsal ticarət və iqtisadiyyat platformaları ilə sıx əməkdaşlıq edərək iqtisadiyyatın rəqəmsallaşmasına da töhfə verirlər.

Azərbaycanlı startapçılar biznes ideyaları, kəşf və bacarıqları ilə artıq qlobal bazarlarda uğurlu investorlar kimi qəbul edilir. Bu motivasiyalar sayəsində son illərdə Azərbaycanın İT və rəqəmsal sektorlarında startap, süni intellekt və biznes ideyaları dünya ölkələrinin startapları ilə rəqabət aparmağa çalışır. Onların KOBİA, Xəzər-Vençur, Elmin İnkişafı Fondu, Prezident yanında Gənclər Fondu, Sahibkarlar Təşkilatları Milli Konfederasiyasında təmsil olunan bacarıqlı gənc ideya müəllifləri kifayət qədər uğur qazanmağa nail olub.

### Yeni startap nəsli formalaşır

Ölkəmizi təmsil edən "SkyBee" komandası Ümumdünya Startap Yarışmasının (World Startup Competition) Asiya və Afrika üzrə Regional Final Müsabiqəsində 30-dan artıq texnologiya şirkəti arasında "Aqrar sektorda ən yaxşı startap" nominasiyasının qalibi olub. Azərbaycanlı startapçılar artıq okeanın o tayında da rəqabət üçün imkanlarını sınamağa çalışır. Yaxın vaxtlarda ABŞ-da keçiriləcək Ümumdünya Startap Yarışmasına iştirak hüququ qazanmaq bu imkanları nümayiş etdirmək baxımından yaxşı fürsət hesab edilə bilər.




### "StartupGenome" beynəlxalq hesabatında əlverişli mövqe

Dünya ölkələrinin innovasiya ekosisteminin təhlilini aparan "StartupGenome" şirkətinin bir müddət əvvəl açıqladığı 2025-ci il üzrə hesabatında Azərbaycan "Asiya ekosistemində istedadların əlçatanlığı" reytinqində ilk 25 ölkə arasında yer alır. "Startup Genome" hesabatında göstərilir ki, Azərbaycandakı ekosistem dövlətin rəqəmsal transformasiya yanaşması, kibertəhlükəsizlik və insan kapitalının inkişaf təşəbbüsləri ilə hərtərəfli dəstəklənir. 2024-2025-ci illərdə startaplar üçün "Microsoft", "Viveka" və "Startup Wise Guys" kimi qlobal səviyyədə tanınan şirkətlərin cəlb edilməsi ilə bir sıra layihələr reallaşdırılıb, rəqəmsal dövlət xidmətlərinin spektri və miqyası genişləndirilib. Ölkədə, həmçinin oyun sənayesinin inkişafı strategiyasının bir hissəsi olaraq nüfuzlu "Xsolla" şirkəti ilə oyun studiyaları üçün inkubasiya proqramı keçirilir. Bütün bu səmərəli layihə və əməkdaşlıq proqramları startapların müasir biznes modeli kimi ön plana çıxması ölkəmizdə yüksək rəqabətli insan kapitalının formalaşmasında da mühüm rol oynayacaq.

***E.CƏFƏRLİ***

# Qarabağın dirçəliş strategiyasının canlı nümunəsi!




## 236 nəfər Xıdırlıdadır...

Demək olar ki, hər gün keçmiş məcburi köçkünlərimizin dədə-baba yurdlarına qayıtdıqlarına şahid oluruq. İşğaldan azad olunan ərazilərimiz arasında Ağdam şəhəri xüsusi yer tutur. Çünki bu şəhər vaxtilə ermənilər tərəfindən xüsusi amansızlıqla dağıdılmışdı. Ağdam eyni zamanda 44 günlük Vətən müharibəsi zamanı bir güllə atılmadan qaytarılan ərazilərimizdən biri idi. 2021-ci ildə Prezident İlham Əliyev tərəfindən şəhərin Baş Planı təsdiqlənib. O tarixdən bəri Ağdam "ağıllı infrastruktur", "yaşıl enerji", ekoloji davamlılıq prinsipləri üzərində yenidən qurulur.

### Mühüm işlər görülür...

Bu gün öz sakinlərini yeni bir ab-hava ilə qarşılayan bölgələrimizdən biri də Ağdamın Xıdırlı kəndidir. Xıdırlı kəndi Qarabağın dirçəliş strategiyasının canlı nümunəsidir. Tikilən hər bir ev, çəkilən yollar, əkilən ağaclar bu torpaqlarda yenidən həyatın başladığını göstərir.

Xatırladaq ki, kəndin təməlqoyma mərasimi 2022-ci ilin oktyabrında keçirilib və həmin mərasimdə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva şəxsən iştirak ediblər. Ümumi ərazisi 417 hektardan çox olan Xıdırlı kəndi iki mərhələdə salınır. Hər şey planlı, mərhələli və gələcək nəsilləri də nəzərə alaraq layihələndirilib.

Layihəyə əsasən, birinci və ikinci mərhələ üzrə ümumilikdə 6 minə yaxın insanın, yəni 1498 ailənin Xıdırlıya köçürülməsi nəzərdə tutulur.

Hazırda həyata keçirilən birinci mərhələnin ərazisi 170 min 44 hektardır. Bu mərhələdə artıq 719 fərdi evin tikintisi başa çatdırılıb. Evlərin planlaşdırılması da ailələrin ehtiyacları nəzərə alınaraq həyata keçirilib: 263-ü ikiotaqlı, 332-si üçotaqlı, 121-i dördotaqlı, və 3-ü isə beşotaqlıdır. Bu evlər müasir memarlıq üslubunda, rahatlıq və enerjiyə qənaət prinsipləri əsasında inşa edilib.





### Xıdırlı müasir kənd modeli kimi qurulur

Qeyd edək ki, Xıdırlıda həyata keçirilən quruculuq təkcə fərdi evlərlə məhdudlaşmır. Burada kənd müasir kənd modeli kimi qurulur. Burada çoxfunksiyalı inzibati bina, klub-icma mərkəzi, tibb məntəqəsi, təcili tibbi yardım bölməsi, həmçinin təhsil və səhiyyə işçiləri üçün müvəqqəti qonaq evi, məişət xidməti obyekti, emalatxana, tam orta məktəb və körpələr evi-uşaq bağçası da tikilib.

Bu infrastruktur yeni sakinlərin gündəlik həyatını rahat və təhlükəsiz şəkildə davam etdirməsi üçün hər cür şərait yaradır. Xidmət sektoru, təhsil və səhiyyə sahələri, ictimai məkanların hamısı yenidən dizayn olunub və müasir standartlara uyğunlaşdırılıb.

Həmçinin Xıdırlı kəndinin layihəsində ekoloji tarazlığa da xüsusi diqqət yetirilib. Kənd ərazisinin təxminən 20 faizi yaşıllıqlardan ibarətdir. Bu yaşıl zonalar təkcə kəndin gözəlliyinə xidmət etmir, eyni zamanda sakinlər üçün istirahət məkanları və ekoloji sağlam mühit formalaşdırır. Geniş bulvar, ağaclar və bəzək kolları ilə bəzədilmiş park sahələri kəndin gələcəyini daha da ümidverici edir.

### Daha 60 ailənin sevinci...

İşğaldan azad olunmuş torpaqlara "Böyük Qayıdış" Proqramı çərçivəsində keçmiş məcburi köçkünlərin doğma yurdlara dönüşü davam edir. Dünən respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı Ağdam rayonunun Xıdırlı kəndinə yola salınıb. Bu mərhələdə 60 ailə olmaqla, 236 nəfər keçmiş məcburi köçkün doğma yurduna qovuşub.

Ailələrə evlərinin açarlarının təqdimatı mərasimində Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Ağdam, Füzuli və Xocavənd rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin nümayəndələri iştirak ediblər.

Doğma yurda qayıdan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər.

*Yeganə BAYRAMOVA*

# Suriyada Əsədin devrilməsindən sonra ilk parlament seçkiləri keçiriləcək



Suriyanın Seçki Komissiyasının rəhbəri dövlət mediasına bildirib ki, ölkədə Bəşər Əsədin devrilməsindən sonra ilk parlament seçkiləri olacaq. Onun sözlərinə görə, səsvermə sentyabrın 15-dən 20-nə qədər keçiriləcək.

AZƏRTAC SANA agentliyinə istinadla xəbər verir ki, Xalq Məclisi Seçkiləri üzrə Ali Komitənin sədri Məhəmməd Taha əl-Əhməd bu məlumatı təsdiqləyib. Seçkilər keçid dövrü Prezidenti Əhməd əl-Şaraanın rəhbərliyi altında keçiriləcək.

Yeni məclisdəki 210 yerin üçdəbiri birbaşa əl-Şaraa tərəfindən təyin ediləcək, qalan üçdə ikisi isə əyalət səviyyəsində seçkilər vasitəsilə müəyyən olunacaq.

Komitə üzvü Hassan Al-Dağim "Erem News" saytına müsahibəsində bildirib ki, seçilmiş yerlər üçün səsverməyə nəzarət etmək məqsədilə hər bir əyalətdə seçki kollegiyaları yaradılacaq.

Mart ayında əl-Şaraa tərəfindən imzalanan müvəqqəti Konstitusiyaya əsasən ölkənin daimi Əsas Qanunu qüvvəyə minənə və tam milli seçkilər keçirilənə qədər keçid parlamenti kimi fəaliyyət göstərəcək Xalq Komitəsi yaradılıb və bu prosesin bir neçə il çəkəcəyi gözlənilir.

# Region ekoloji təhlükə altında...

## Metsamor AES bağlanmalıdır!

Cənubi Qafqaz regionu, habelə İran və Türkiyə ciddi ekoloji təhlükə ilə üz-üzə qalıb. Bu təhlükə bütöv bir regionda böyük fəlakətlərə yol aça bilər. Beynəlxalq səviyyədə çağırışların olmasına baxmayaraq, təəssüf ki, bu təhlükənin qarşısının alınması istiqamətində indiyədək heç bir ciddi tədbir görülməyib. Sözsüz ki, burada söhbət Ermənistandakı Metsamor Atom Elektrik Stansiyasından gedir. Qeyd edək ki, bu stansiya 1976-cı ildə istismara verilib. Metsamor AES-in istismar müddəti 30 il nəzərdə tutulmasına baxmayaraq, stansiya hələ də öz fəaliyyətini davam etdirir. İstismar müddətinin başa çatmasından 20 il ötüb. Ən narahatedici amil isə Metsamor AES-in seysmik zonada yerləşməsidir. Araşdırmalara görə, AES-in ətrafında mövcud olan 5 tektonik qırılmadan biri stansiyadan cəmi 500 metr aralıdadır. Ərazinin seysmik aktivliyini nəzərə alan SSRİ rəhbərliyi Spitak bölgəsində baş verən zəlzələdən sonra Metsamor AES-in fəaliyyətini tamamilə dayandırmışdı. Amma enerji böhranını bəhanə gətirən o vaxtki Ermənistan hökuməti 1995-ci ildə AES-in ikinci blokunu yenidən işə salıb. Hazırda Metsamor AES Rusiyanın dövlət nüvə enerji şirkəti - "Rosatom"un texniki dəstəyi ilə fəaliyyət göstərir.

### Region ciddi risk altındadır

Nə Petrosiyan, nə Köçəryan, nə də Sarkisyan hakimiyyəti Metsamor AES-in istismar müddətindən artıq fəaliyyət göstərməsinin, hətta seysmik zonada yerləşməsinin və bu zonadakı tektonik xətlərin toqquşması nəticəsində baş verə biləcək radiasiya sızmasının hansı təhlükəli fəsadlara yol açacağını nəzərə almayıb. Paşinyan hakimiyyəti də eyni siyasi xətti davam etdirir. Zaman-zaman atom elektrik stansiyalarının ölüm kabusuna çevrilməsinin şahidi olmuşuq - bu kabus bu günə kimi dünyanın başı üzərində dolaşmaqdadır. 1979-cu ildə ABŞ-ın Tri-Meyl-Aylend Atom Elektrik Stansiyasında, 1986-cı ildə Ukraynanın Çernobıl və 2011-ci ildə Yaponiyanın Fukusima AES-lərdə baş verən qəzaların ağır fəsadları hələ də tam aradan qaldırılmayıb - bu qəzalar nəticəsində böyük coğrafiyada ekosistemə və genefonda ciddi ziyan dəyib. Bütün bunları nəzərə alan bir çox Qərb mütəxəssisləri Metsamor Atom Elektrik Stansiyasında da eyni halların baş verə biləcəyini istisna etməyib. Cənubi Qafqaz üzrə ekspert Peter Marko Teys "Daily Mail"ə açıqlamasında qeyd edib ki, Metsamor AES texnoloji cəhətdən köhnəlib və bunun özü çox ciddi riskdir. "Bu reaktorun fəlakətə səbəb olma riski çox yüksəkdir. Partlayış baş verəcəyi halda o, Çernobıl kimi torpaq, su və havanın çirklənməsinə səbəb ola bilər, onun təsiri illərlə Avropanın səmalarında da hiss edilə bilər", - deyə Teys bildirib. Sözügedən AES-in aktiv seysmik qırılma xəttində yerləşdiyinə diqqət çəkən mütəxəssislər, onun struktur təhlükəsizliyinin yetərli olmaması barədə dəfələrlə xəbərdarlıq ediblər.

### Beynəlxalq çağırış

Beynəlxalq təşkilatlar Metsamor AES-in fəaliyyətinin davam etdirilməsi ilə bağlı mütəmadi olaraq həyəcan təbili çalıblar - beynəlxalq qurumların hesabatlarında bununla bağlı bir sıra tövsiyələr və xəbərdarlıqlar öz əksini tapıb. 2000-ci ildə Avropa İttifaqı (Aİ) AES-in fəaliyyətinin dayandırılmasına çağırış etdi. Hətta bunun müqabilində Aİ Ermənistana 138 milyon avro vəsait ödəməyə hazır olduğunu bildirdi. İrəvan isə bu vəsaitlə razılaşmadı və Avropa İttifaqının təklifindən vaz keçdi. 2002-ci ildə Avropa Şurasının ekspert komissiyası bölgəyə gələrək seysmik zonada yerləşən stansiyanın beynəlxalq standartlara uyğun olmadığı və fəaliyyətinin ətraf mühit üçün çox təhlükəli olduğunu bildirib. Bununla bağlı AŞPA öz narahatlığını ifadə edən müvafiq sənədlər - 27.06.2001-ci ildə 9148 saylı, 31.01.2022-ci ildə 9336 saylı, 07.05.2022-ci ildə 9444 saylı qətnamələr qəbul edib. Azərbaycan vətəndaş cəmiyyətinin nümayəndələri də bu problemə səssiz qalmayıb. 2024-cü ilin aprelində bir sıra qeyri-hökumət təşkilatları Nüvə Enerjisi Sammitinin həmsədrlərinə - Belçikanın Baş naziri Aleksandr De Krooya və Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin (AEBA) Baş direktoru Rafael Mariano Qrossiyə açıq məktub ünvanlayıblar. Onlar məktubda Metsamor AES-in yaratdığı təhlükələrin aradan qaldırılmasının zəruriliyini vurğulayıblar.



### Radioaktiv sızma təhlükəsi

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Radiasiya Problemləri İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü İslam Mustafayev "Yeni Azərbaycan" qəzetinə şərhində qeyd edib ki, Metsamor AES-də hər hansı hadisənin baş verməsi bütün regiona öz təsirini göstərəcək radioaktiv sızmaya səbəb ola bilər.

"Metsamor Atom Elektrik Stansiyasının iki reaktorunun istismar müddəti çoxdan başa çatıb. Amma buna baxmayaraq, AES öz fəaliyyətini davam etdirir. Stansiyanın reaktorlarından biri isə zədəlidir. Belə bir halda stansiyanın fəaliyyətinin davam etməsi, təbii ki, region üçün çox böyük təhlükədir. Metsamor AES-in obyekti Azərbaycan, Türkiyə və İranla sərhəd ərazilərə çox yaxındır, hətta Gürcüstanla sərhəddən 173 kilometr aralıda yerləşir. Radiasiyanın yayılması üçün 173 km elə də böyük məsafə deyil. Xüsusi bir məqamı da qeyd edim ki, Metsamor AES-də reaktorların soyudulması üçün yerin dərinliyindəki sulardan istifadə olunur. Əgər nə zamansa həmin ərazidə zəlzələ baş verərsə, yeraltı suların istiqaməti dəyişəcək. Belə bir vəziyyətdə isə Metsamor AES-in reaktorlarının ehtiyat soyutma sistemlərində su qıtlığı yaranacaq. Bu da reaktorların partlamasına səbəb ola bilər. Yaponiyada Fukusima AES-də qəza məhz bu səbəbdən baş vermişdi. Metsamor AES köhnəlmiş, etibarsız və təhlükəsizlik baxımından davamlı olmayan bir stansiyadır. Əgər bu stansiyada hər hansı ciddi hadisə yaşanarsa, istər-istəməz, radioaktiv sızma baş verəcək. Bu da bütün regiona yayılacaq və ətraf mühiti çirkləndirəcək. Radioaktiv maddələrin ziyanı budur ki, o, nə görünür, nə də iyi hiss olunur. Nəticə etibarı ilə insan orqanizmində müxtəlif ağır xəstəliklər əmələ gəlir. Çernobıl və Fukusima AES-də baş verənlər sübut etdi ki, hadisə baş verəndən sonra tədbirlərin görülməsi mənasızdır və problemi vaxtında həll etmək lazımdır," -deyə İ.Mustafayev vurğulayıb.

### Metsamor AES-in çirkli maddələri Araza axıdılır

"Neçə ildir ki, Metsamor AES-in çirkli maddələri Araz çayına axıdılır. Həmin çirkli maddələr Kür çayına və oradan Bakı Şəhərinin Su Qovşağına, sonda isə Xəzər dənizinə yayılır. Azərbaycan əhalisi Araz və Kür çaylarının, hətta Bakı Su Qovşağının suyundan həm məişət, həm içməli su, həm də suvarma məqsədləri üçün istifadə edir. Çirkli maddələrlə qarışıq sudan istifadə, sözsüz ki, insan sağlamlığına ziyan vurur," - deyə İ.Mustafayev əlavə edib ki, Azərbaycan bu təhlükə ilə bağlı dəfələrlə beynəlxalq ictimaiyyəti xəbərdar edib: "Ölkəmiz Beynəlxalq Atom Enerjisi Agentliyinə mütəmadi olaraq müraciət edərək Metsamor AES-in bağlanmasını tələb edib. Beynəlxalq ictimaiyyət tərəfindən ciddi bir tədbir görülənə qədər mübarizəmizi davam etdirməliyik. Ətraf mühitə və insan sağlamlığına təhlükə yaradan AES-in fəaliyyətinə xitam verilməlidir".

*Yunis ABDULLAYEV*

# Fələstin dövləti tanınacaqmı?

## Qəzzada yaranmış aclıq təhlükəsi beynəlxalq ictimaiyyəti narahat edir

Uzun illər davam edən İsrail-Fələstin münaqişəsinin sonu hələ də görünmür. Beynəlxalq ictimaiyyətin sülh təşəbbüsləri isə nəticəsiz qalıb. Xatırladaq ki, 1947-ci ildə Birləşmiş Millətlər Təşkilatı o vaxt Britaniya mandatı altında olan Fələstinin yəhudi və ərəb dövlətlərinə bölünməsinə qərar verib. İsrail Dövləti 1948-ci ildə elan edilsə də, Fələstin dövləti rəsmən tanınmayıb. Artıq onilliklərdir ki, BMT üzvlərinin əksəriyyəti İsrail-Fələstin probleminin bu yolla həllini dəstəkləyir. Lakin ABŞ və İsrail BMT-nin "iki dövlət" prinsipinə əsaslanan qərarına deyil, ikitərəfli danışıqlar yolu ilə münaqişənin həllinin tərəfdarıdır.

### Quterreş beynəlxalq konfransı alqışlasa da...

2023-cü il oktyabrın 7-də isə HƏMAS-ın tunellər vasitəsilə İsrail ərazisinə sızaraq yüzlərlə dinc insanı qətlə yetirməsindən və girov götürməsindən sonra münaqişə daha da gərginləşib. İsrail HƏMAS-ı zərərsizləşdirmək və girovları azad etmək üçün Qəzzada hərbi əməliyyatlara başlayıb. Hərbi əməliyyatlar hər iki tərəfdən çoxsaylı insan ölümlərinə səbəb olub. Xüsusilə, həmin dövrdən Qəzzada ölən insanların sayı 50 min nəfəri ötüb. Hazırda Qəzza sakinləri aclıq təhlükəsi ilə üz-üzədir.

Yaranmış vəziyyət beynəlxalq birliyi hərəkətə keçməyə məcbur edib. BMT-nin Nyu-Yorkda yerləşən mənzil-qərargahında Fələstin məsələsi və iki dövlətli həllin icrası ilə bağlı yüksək səviyyəli konfrans keçirilməsi də bununla bağlıdır. Konfrans Fransa və Səudiyyə Ərəbistanının həmsədrliyi ilə baş tutub. Baş Assambleyanın mandatı altında üç gün davam edən konfrans çərçivəsində plenar iclas, işçi qruplarının görüşləri təşkil olunub, BMT-nin yüksək səviyyəli rəsmilərinin və üzv dövlətlərin çıxışları dinlənilib.

BMT-nin Baş katibi Antonio Quterreş hesab edir ki, yüksək səviyyəli konfrans davamlı sülhə doğru mühüm addımdır. O, həmsədrlər - Fransa və Səudiyyə Ərəbistanını bu tədbirin keçirilməsində göstərdikləri liderlik və dəstəyə görə alqışlayıb. Bununla belə Baş katib deyib ki, "iki dövlət həlli əvvəlkindən daha uzaqdır".

### Fələstinin Baş naziri: HƏMAS tərk-silah edilməlidir

Tədbirdə çıxış edən Fələstin Muxtariyyətinin Baş naziri Məhəmməd Mustafa bildirib ki, HƏMAS döyüşdən zərər çəkmiş ərazidə təhlükəsizliyi bərpa etmək üçün tərk-silah edilməli və Qəzzaya nəzarəti Fələstin Muxtariyyətinə təhvil verməlidir: "İsrail Qəzza zolağından tamamilə çıxmalı, HƏMAS bu zolağa nəzarəti azad etməli və silahlarını Fələstin Muxtariyyətinə təhvil verməlidir". Fələstinin Baş naziri deyib ki, bütün dövlətlər məhz indi hərəkətə keçməlidir. O, Fələstin dövlətçiliyinin qurulmasına kömək etmək üçün beynəlxalq ictimaiyyəti dəstək verməyə çağırıb.

İordaniya baş nazirinin müavini və xarici işlər naziri Ayman əs-Safadi də çıxışında qeyd edib ki, Yaxın Şərqdə ədalətli və hərtərəfli sülhə nail olmağın yeganə yolu BMT-nin İsraillə yanaşı yaşayacaq Fələstin dövlətinin yaradılması qərarını həyata keçirməkdir: "Fələstin dövlətinin tanınması təcili zərurətə çevrilib və fələstinlilər danışıqlara başlamağa hazır olduqlarını bildiriblər. Lakin İsrail sülh prosesinə maneçilik törədir və öhdəliklərini yerinə yetirmir. Bu vəziyyətdə BMT Təhlükəsizlik Şurasının yəhudi dövlətinə qarşı tədbir görməsinin vaxtı çatıb".

Əs-Safadi beynəlxalq ictimaiyyətin diqqətini İsrailin Qəzza zolağı və İordan çayının qərb sahilində "sülh perspektivlərini sarsıdan və gərginliyi artıran" birtərəfli hərəkətlərinə yönəldib. "Biz İsraili dayandırmaq və humanitar fəlakətin davam etdiyi Qəzza zolağında faciəyə son qoymaq üçün hərəkətə keçməliyik" - deyə, o vurğulayıb.



Qəzzada humanitar böhran isə o qədər dərinləşib ki, ABŞ-ın strateji müttəfiqi olan Böyük Britaniyanın da Fələstin dövlətini tanıması istisna edilmir. Böyük Britaniya parlamentarilərinin üçdə-birindən çoxu - doqquz siyasi partiyadan 221 deputat Baş nazir Kir Starmeri Fələstin dövlətinin müstəqilliyini tanımağa çağıran birgə məktub imzalayıblar. "Biz başa düşürük ki, Böyük Britaniya Fələstinin azadlığını və müstəqilliyini təmin etmək imkanına malik deyil, ancaq tarixi əlaqələrimiz, BMT Təhlükəsizlik Şurasındakı üzvlüyümüz krallığın onu tanımasına əhəmiyyətli təsir göstərərdi", - deyə, onlar vurğulayıblar.

### ABŞ BMT tədbirini boykot edib

Qeyd edək ki, İsrailin strateji müttəfiqi olan ABŞ bu konfransı boykot edib. Bir neçə gün əvvəl Fransa prezidenti Emmanuel Makronun sentyabrda keçiriləcək BMT Baş Assambleyasının sessiyasında Fələstin dövlətçiliyini rəsmən tanıyacağını bəyan etməsi də İsrail və Vaşinqtonun kəskin etirazına səbəb olub. Strateji müttəfiqlər hesab edirlər ki, Fransanın bu mövqeyi HƏMAS-ın maraqlarına uyğundur. ABŞ Dövlət Departamenti bəyan edib ki, BMT səmərəsiz konfransa ev sahibliyi edir və bu, münaqişəni sona çatdırmaq üçün aparılan diplomatik səylərin içərisində reklamdır. "Konfrans nəinki sülhü təşviq etmir hətta müharibəni uzadır. Bu, HƏMAS-ı cəsarətləndirəcək, addımlarına görə mükafatlandıracaq və sülhə nail olmaq istiqamətində göstərilən real səylərini sarsıdacaq",- deyə Dövlət Departamentinin bəyanatında qeyd olunub.

Bununla belə, sülh təşəbbüslərinin heç bir nəticə verməməsi Qəzzada minlərlə günahsız insanın ölümünə səbəb olub ki, bu da sükutla izlənilə bilməz. Artıq Qəzzada insanların aclıqdan ölməsi faktı qeydə alınıb. Aclıqdan ölənlər arasında uşaqlar da var. Belə şəraitdə Fələstin dövlətini tanıyanların sayı artır. İndiyədək 150-ə yaxın dövlət Fələstini tanıyıb. 95 ölkədə isə Fələstin səfirlikləri və daimi nümayəndəlikləri fəaliyyət göstərir. O cümlədən, Azərbaycan və Türkiyə də münaqişənin "iki dövlət prinsipi" əsasında həllinin tərəfdarı olduqlarını bəyan ediblər.

### Britaniya Fələstini tanıyacaqmı?

Parlamentarilərin bəyanatı ABŞ Prezidenti Donald Trampın Şotlandiyaya dördgünlük səfəri ərəfəsində səslənib. Məlumata görə, Baş nazirin müavini Angela Rayner, daxili işlər naziri Yvette Kuper və xarici işlər naziri Devid Lemmi də Britaniya hökumətinin Fransa ilə birlikdə Fələstin dövlətinin yaradılması məsələsində aparıcı rol oynamasının tərəfdarıdırlar.

Belə bir şəraitdə Böyük Britaniyanın Baş naziri Kir Starmer kabinet üzvlərini yay tətilindən geri çağıraraq Qəzza zolağındakı humanitar böhranla bağlı təcili iclas keçirməyə qərar verib. Bu addım Fələstin dövlətini tanımaq üçün son günlər Britaniya hökumətinə artan daxili və beynəlxalq təzyiqlərin fonunda atılıb. Təcili iclas qərarı ABŞ və İsrailin Qətərdə aparılan sülh danışıqlarından nümayəndə heyətlərini geri çağırmasından sonra verilib. Ağ Evin xüsusi elçisi Stiv Vitkof danışıqların dayanmasına görə HƏMAS-ı ittiham edərək, onların razılığa gəlmək istəyinin olmadığını bildirib.

Lakin Qəzza əhalisinin aclıq təhlükəsi ilə üz-üzə qalması beynəlxalq ictimaiyyətin ABŞ və İsrailə qarşı etirazlarını artırır. BMT Təhlükəsizlik Şurasının daimi üzvləri olan Fransa və Böyük Britaniyanın Fələstin dövlətini tanıması isə ABŞ-la İsrailin mövqeyinə ciddi zərbə vura bilər. Yəqin ki, bu səbəbdən İsrail fələstinlilərə humanitar yardımların çatdırılmasına imkan yaradacağını vəd edib. Artıq BMT ilə yanaşı, bir sıra ölkələr də Qəzzaya humanitar yardım aparmaq üçün tədbirlər görürlər.

*N.BAYRAMLI*

# Tramp möhləti azaldır...

## Ağ Ev Rusiyaya qarşı yeni sanksiya paketi üzərində işləyir

Yaxın zamanda ABŞ Prezidenti Donald Tramp Rusiyanı cəzalandırmaq üçün çox sərt tədbirlər görə bilər. Belə ki, Ağ Evin rəhbəri Şotlandiyada Böyük Britaniyanın Baş naziri Kir Starmerlə görüşündə Rusiya Prezidenti Vladimir Putinə Ukrayna ilə sülh razılaşması əldə etmək üçün 50 günlük müddəti 10-12 günə endirdiyini bildirib. ABŞ Prezidenti bu qərarında ciddi olduğunu bəyan edib. "Mən bu gündən etibarən təxminən 10 və ya 12 günlük yeni son tarix təyin edəcəyəm. Gözləməyə heç bir səbəb yoxdur. Mən xoşniyyətli olmaq istəyirəm, lakin biz heç bir irəliləyiş görmürük",- deyə Tramp bildirib. Dövlət başçısı Rusiyaya ikinci dərəcəli tariflər tətbiq edəcəyini bir daha təkrarlayıb. "Biz fikirləşirdik ki, bunu həll etmişik, sonra Prezident Putin Kiyev kimi hansısa şəhərə raketlər atmağa başlayır və qocalar evində çoxlu insanı öldürür, yaxud başqa nə isə edir",- deyə ABŞ Prezidenti əlavə edib. Xatırladaq ki, bu ayın əvvəlində Ağ Evdə Tramp NATO-nun Baş katibi Mark Rutte ilə görüşündə Putinə 50 gün möhlət verdiyini bəyan etmişdi.

### Vaşinqton sərt tədbirlərə əl ata bilər, amma...

Məsələ ilə bağlı politoloq Tural İsmayılov "Yeni Azərbaycan" qəzetinə şərhində qeyd edib ki, Ağ Evin budəfəki tədbirləri yalnız Rusiyanı deyil, həmçinin onun müttəfiqlərini də hədəfləyib. "Trampın Rusiyanın ticarət tərəfdaşlarına qarşı 10-12 gün ərzində 100%-lik tariflər tətbiq edəcəyi ilə bağlı son bəyanatı Rusiya-Ukrayna münaqişəsində və Rusiya-ABŞ münasibətlərində fərqli narrativlər yaradan ciddi bir addımdır. ABŞ Prezidentinin son bəyanatı onu deməyə əsas verir ki,Vaşinqton Moskva üzərində təzyiqləri gücləndirmək niyyətindədir. Tariflər Rusiya iqtisadiyyatına birbaşa təsir etməklə yanaşı, Çin və Hindistan kimi Rusiyanın əsas ticarət tərəfdaşlarını da hədəfləyir, bu isə qlobal ticarət dinamikasında dalğalanma yarada bilər. Trampın strategiyası iqtisadi sanksiyalar vasitəsilə Rusiyanı Ukrayna ilə sülh danışıqlarına məcbur etmək məqsədi daşıyır, lakin bunun effektivliyi sual altındadır. Rusiyanın iqtisadi dayanıqlığı və Çin kimi müttəfiqlərinin dəstəyi bu sanksiyaların effektivliyini azalda bilər. Xüsusilə, Pekin öz geosiyasi maraqlarını qorumaq üçün Moskvaya dəstəyi davam etdirməkdə qərarlıdır. Trampın qısaldılmış 10-12 günlük müddəti, danışıqlar üçün məhdud zaman pəncərəsi yaradır ki, bu da Rusiyanın mövqeyini sərtləşdirə bilər," - deyə T.İsmayılov əlavə edib ki, ABŞ-ın bu strategiyası, qlobal ticarət müharibəsinə də səbəb ola bilər: "Çünki Rusiyanın ticarət tərəfdaşları da bu tariflərdən zərər görəcək. Ukrayna üçün bu vəziyyət, ABŞ-ın dəstəyinə baxmayaraq, danışıqlarda daha çox güzəştə getmək riskini artırır. Nəticə etibarilə, Trampın bu siyasəti Rusiya-ABŞ münasibətlərində yeni gərginlik dalğası yaradacaq, xüsusilə də sülhə nail olmaqdan daha çox iqtisadi və geosiyasi qarşıdurmanı dərinləşdirə bilər". Ekspertin sözlərinə görə, NATO-nun Baş katibi Mark Ruttenin Trampın planını dəstəkləməsi ABŞ-ın Avropa müttəfiqlərini də bu strategiyaya cəlb etmək istədiyini göstərir. "Lakin Avropa ölkələrinin Rusiya ilə ticarətə bağlılığı, xüsusilə enerji asılılığı, bu tariflərə qarşı müqavimət yarada bilər. Qlobal ticarət zəncirlərində qeyri-müəyyənlik artır və iqtisadi qütbləşmələr dərinləşir. Trampın bu addımı, qlobal iqtisadiyyatda proteksionizmi gücləndirəcək. Bu isə Ümumdünya Ticarət Təşkilatının prinsiplərinə ziddir. Rusiyanın cavab addımları, məsələn, enerji ixracını məhdudlaşdırması və ya digər ölkələrlə daha sıx ittifaq qurması vəziyyəti daha da ağırlaşdıracaq".



### Trampın yeni sanksiya paketi

T.İsmayılov, həmçinin vurğulayıb ki, Tramp administrasiyası Rusiyanı strateji cəhətdən təcrid etmək məqsədilə yeni sanksiya paketi üzərində işləyir: "Bu paket əsasən enerji ixracına, maliyyə institutlarına və texnologiya transferinə yönələcək. Məqsəd Rusiyanın müharibə potensialını iqtisadi şəkildə iflic etməkdir. Trampın komandası bu tədbirləri beynəlxalq tərəfdaşlarla koordinasiya şəklində icra etməyi planlaşdırır. O, Çin və Hindistan kimi böyük enerji alıcılarını alternativ mənbələrə yönəltməyə çalışır. ABŞ neft bazarına müdaxilə etməklə qiymətləri aşağı salmağa və Rusiyanın gəlirlərini azaltmağa cəhd edəcək".

### Moskva seçim qarşısında...

"Tramp diplomatik vasitələrlə Ukrayna ətrafında sabitlik yaratmaq niyyətindədir. Onun təqdim etdiyi atəşkəs planı konkret müddətlərlə və ultimatum xarakterli tələblərlə müşayiət olunur. Moskva bu planı qəbul etməsə, sanksiyaların növbəti mərhələsi daha sərt olacaq. Tramp bu siyasəti NATO üzvü ölkələri ilə paralel şəkildə həyata keçirir. Ukraynaya hərbi və iqtisadi dəstək genişləndirilir. O, Putinlə birbaşa danışıq kanallarını açıq saxlayır, lakin güzəştə getməmək prinsipində qərarlıdır. Trampın sərt ritorikası Moskvanı strateji seçim qarşısında qoyur. Bu yanaşma Rusiyanı müharibəni dayandırmağa və sülh masasına oturmağa məcbur edə bilər," - deyə T.İsmayılov bildirib.

*Yunis ABDULLAYEV*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Bakmətbuat" MMC - 0124314313
"Ziya LTD" MMC - 0124977696, 0503067744

6 aylıq abunə - 79,20 AZN
12 aylıq abunə - 158,40 AZN






# İnsan alverinə qarşı necə mübarizə aparaq?

**İnsan alveri müasir dövrümüzdə ən aktual problemlərdən biridir. Bir çox dünya ölkələrində baş verən bu hadisənin qurbanları kişi, qadın və uşaqlar ola bilər. Bu cinayətə qarşı mübarizə üçün beynəlxalq səviyyədə xeyli anlaşma, protokol, dövlətlərarası qarşılıqlı yardım sənədləri, konvensiyalar imzalanır. Həmin sənədlərdə vurğulanır ki, insan alverinə qarşı mübarizə aparmaq üçün dövlətlərin qarşılıqlı yardımlaşması vacibdir.**

## Ümumbəşəri sosial bəla...

### 32 milyard dollar gəlir...

Birləşmiş Millətlər Təşkilatının (BMT) məlumatına əsasən, dünyada insan alverindən gələn gəlir təxminən 32 milyard ABŞ dolları təşkil edir.

BMT-nin hesabatına görə, hər beş insan alveri qurbanından biri yetkinlik yaşına çatmayan gənclərdir. Bu qurbanların sayının artmasına əsaslanaraq, bir çox ölkədə insan alveri ilə məşğul olan şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsi üçün normativ hüquqi aktlar qəbul edilib.

### Hər üç qurbandan biri uşaqdır...

Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondunun (UNICEF) hesablamasına görə, hər il 1,2 milyon uşaq uşaq alverinin qurbanı olur. Aşkar olunan qurbanlar arasında uşaqların faiz nisbəti artmaqdadır: hər üç qurbandan biri uşaqdır. İnsan alverinin qurbanı olan hər üç uşaqdan ikisi qızlardır. Beynəlxalq Əmək Təşkilatının (BƏT) hesablamasına görə, məcburi əməyə məruz qalanların 40 - 50 faizi 18 yaşınadək olanlardır.

### İnsan alveri necə baş verir?

İnsan alverində əsas məqamlardan biri qurbanın istismara cəlb edilməsidir. Qurbanları cəlb edən şəxslər onlara çoxlu yalan vədlər edirlər. Bəzi hallarda qurban nə işlə məşğul olacağını əvvəlcədən bilir, amma hansı şərtlərlə qarşılaşacağını təsəvvür etmir. İnsanları istismara cəlb edənlər tez-tez KİV-də yalançı elanlar verir, internetdə saxta saytlar açır, bəzən isə saxta işəgötürmə agentlikləri də yaradırlar. Onlar uşaq dayələri, xəstə baxıcısı, evlərə yardımçı, ofisiant, model, rəqqasə və s. işlər təklif edirlər. Verilən vədlər çox inandırıcı və cəlbedici olur. İnsanları belə işlərə cəlb edənlər, onların yaxın dost, rəfiqə və hətta qohumları da ola bilərlər.

### Qurban hansı təzyiqlərlə üzləşir?

Qurban azad hərəkət edə bilmir, onu adətən borc tələsinə salır və işləyərək, onun üçün ödənilən pulların əvəzini çıxmağa məcbur edirlər. Nəticədə, pulun miqdarı getdikcə artır, üstünə faizlər, qurbanın saxlanılması üçün xərclənən pullar, müxtəlif cərimələr gəlir. Qurbanın sənədləri alınır, sərbəst hərəkət etməsinə və yaxınları ilə ünsiyyət qurmasına qadağalar qoyulur.

### Hansı hallar insan alveri hesab olunur?

Avropa Şurasının "İnsan alverinə qarşı mübarizə haqqında" 16 may 2005-ci il tarixli Varşava Konvensiyasında "insan alveri" anlayışı belə təsbit olunub: İnsan alveri dedikdə, hədəqorxu və ya zor tətbiq etməklə, yaxud başqa cür məcbur etməklə qaçırma, dələduzluq və ya aldatma yolu ilə, vəzifədən və ya şəxsin köməksiz vəziyyətindən sui-istifadə etməklə şəxslərin istismar məqsədləri üçün cəlb edilməsi, daşınması, ötürülməsi, gizlədilməsi və ya qəbul edilməsi başa düşülür.

Yeri gəlmişkən, Azərbaycan da bu konvensiyaya qoşulub və sənəd 11 may 2010-cu ildə təsdiq edilib. Bu gün - iyulun 30-u İnsan Alverinə Qarşı Mübarizə Günü kimi qeyd edilir. Ölkəmizdə də insan alverinə qarşı mübarizə geniş vüsət alıb. Bununla bağlı respublikamızda hüquqi-normativ baza müəyyən edilib. Prezidentin 2004-cü il 6 may tarixli sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında İnsan Alverinə Qarşı Mübarizə üzrə Milli Fəaliyyət Planı" hazırlanıb.

### Necə mübarizə aparmalı?

Hər şeydən əvvəl maarifləndirmə tədbirlərinin artırılmasına ehtiyac var. Bu cinayətlə mübarizənin yollarından biri də qadın və uşaqların hüquqi və sosial müdafiəsinin gücləndirilməsi, insan alverinə şərait yaradan sosial problemlərin həllinə yönəldilmiş proqramların hazırlanması və həyata keçirilməsidir. İnsan alverinin potensial qurbanlarının ictimai faydalı əməyə cəlb edilməsi, onların məşğulluğunun təmin edilməsi vacib şərtdir.

Təkcə cəmiyyətdə deyil, potensial qurbanlar arasında da maarifləndirmə və təbliğat işinin təşkili mütləqdir. Qurbanlar onları gözləyən təhlükə, müdafiə tədbirləri və hüquqi baza barədə məlumatlı olmalıdırlar.

Ən əsası, təhsildən yayınan uşaqların aşkar edilməsi, onların təlim və tərbiyəsinə diqqət edilməsi çox vacibdir. Cəmiyyətin qazandığı hər bir yeniyetmə bir qurbanın azalması deməkdir...

*Yeganə BAYRAMOVA*

# Dünyanı dostluq xilas edəcək!

**Nəcib və misilsiz hisslərin təzahürü olan dostluq bəşəriyyət üçün böyük əhəmiyyətə malikdir. Bəzən həyatımızı, düşüncələrimizi, hisslərimizi, sevinclərimizi və məyusluqlarımızı paylaşa biləcəyimiz birinə ehtiyac duyuruq. Dünyanın elə bir guşəsi yoxdur ki, orada dostsuz-yoldaşsız yaşamaq mümkün olsun.**

**Təbii ki, hamı ilə dost olmaq mümkün deyil. Bu baxımdan dost seçimində ilk öncə ağlımız, yəni həyata baxışımız dost olacağımız insanla uyğun olmalıdır. Bizi başa düşə bilən, hisslərimizi paylaşan, lazım olanda bizə dəstək olan, hər şeydən əvvəl bizi incitmədən səhvlərimizi söyləyən insanlarla dost olmalıyıq.**

**Bəlkə elə buna görədir ki, 2011-ci ildə Paraqvay Respublikasının təşəbbüsü ilə BMT-nin Baş Məclisi iyulun 30-nu Beynəlxalq Dostluq Günü elan edib. Qurumun üzvü olan ölkələrdə Dostluq Gününün qeyd olunmasının Baş Məclis tərəfindən tövsiyə edilməsi həm də xalqlar, ölkələr, mədəniyyətlər arasında sülh səylərini ruhlandırmaq və icmalar arasında körpülər qurmaq ideyasından irəli gəlirdi.**

## 30 iyul Beynəlxalq Dostluq Günüdür

### Yaxınlıq və oxşarlıq...

Dostluğun formalaşmasında ən vacib amillərdən biri yaxınlıqdır. İnsanlar bir-birinə fiziki cəhətdən yaxın olduqda, məsələn, eyni məhəllədə yaşayırlarsa, eyni məktəbdə oxuyur və ya eyni iş yerində işləyirlərsə, daha çox dostluq edirlər. Bundan əlavə, oxşarlıq da dostluğun inkişafında rol oynayır. Biz ümumi maraqları, dəyərləri və münasibətləri paylaşdığımız biri ilə dost olmağa meyl edirik.

### Emosional dəstək və empatiya...

Dostluğun əsas funksiyalarından biri emosional dəstək verməkdir. Dostlar dinləmək, empatiya qurmaq və həyatdakı çətinliklərin öhdəsindən gəlməyə kömək etmək üçün yanımızdadırlar. Belə ki, başqalarının keçirdiyi hissləri başa düşmək və bölüşmək bacarığı güclü bir dostluq əlaqəsinin olduğunu sübut edir.

### Münaqişələrin həlli və ünsiyyət...

Dostlar münaqişələrdən və fikir ayrılıqlarından qorunmur. Onların baş vermiş münaqişələri necə həll etmələri və hisslərini ifadə etmələri dostluq münasibətinə əhəmiyyətli dərəcədə təsir göstərir. Effektiv ünsiyyət, aktiv dinləmə və konfliktləri konstruktiv həll etmək bacarığı sağlam dostluq münasibətlərinin qorunması üçün vacibdir.

### Qarşılıqlı və güvən...

Qarşılıqlı dostluğun mühüm aspektidir. Balanslaşdırılmış duyğular, dəstək və lütf mübadiləsi dostlar arasındakı bağı gücləndirir. Dostluqda güvən də vacib ünsürdür. Çünki güvən əsl dostluğun mühüm göstəricilərindən sayılır.



*Yeganə BAYRAMOVA*

## İdman

### Atıcılarımız Fransada uğurla çıxış ediblər





Fransanın Şatoru şəhərində keçirilən Avropa Atıcılıq Çempionatında Azərbaycan idmançıları uğurlu nəticə əldə ediblər.

Azərbaycan Atıcılıq Federasiyasından AZƏRTAC-a verilən məlumata görə, dairəvi (skeet) stend qarışıq duet komandası kateqoriyasında mübarizə aparan Niyaz Ağazadə və Riqina Meftaxetdinova cütlüyü bürünc medal qazanıb.

Medal qarşılaşmasında təmsilçilərimiz Stefan Nilsson Şoen və Viktoria Larssondan ibarət İsveç duetinə qarşı üstün oyun nümayiş etdirərək inamlı qələbə ilə 3-cü yeri təmin ediblər.

### MOK rəsmisi: Avropa Gənclər Olimpiya Festivalında qazanılan 10 medalı qənaətbəxş hesab edirik

Azərbaycan komandası üçün Olimpiya Festivalında qazanılan nəticəni qənaətbəxş hesab edirik. Amma düşünürük ki, nəticə bundan da yaxşı ola bilərdi.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Milli Olimpiya Komitəsinin (MOK) İdman idarəsinin müdiri Həsənağa Rzayev Şimali Makedoniyanın Skopye, Kumanov və Xorvatiyanın Osiyek şəhərlərində keçirilən XVIII Avropa Gənclər Olimpiya Festivalını (EYOF) 10 (3 qızıl, 3 gümüş, 4 bürünc) medalla başa vuran Azərbaycan idmançılarının çıxışlarını dəyərləndirərkən deyib.



Onun sözlərinə görə, Azərbaycan komandasının indiyədək EYOF-da bundan da yaxşı nəticələri olub: "2007-ci ildə Belqrad şəhərində 7 qızıl medala yiyələnmişdik. Onlardan dördü cüdoda, üçü isə atletika yarışlarında əldə olunmuşdu. Cüdo bizdə daha yaq idman növü kimi qiymətləndirilir. EYOF-da hər zaman ən yüksək nəticələrimiz cüdoda olub. Ötənilkilərdə müqayisədə bu dəfə atıcılarımız da uğurlu çıxış etdilər. Gimnastlarımız da özlərini yaxşı tərəfdən göstərdilər. Onlar finala yüksəlmələrinə baxmayaraq, zədə və başqa səbəblərdən mükafatçılar sırasına düşə bilmədilər".

MOK rəsmisi bildirib ki, EYOF-dakı uğurlar gənc idmançılar üçün Olimpiya hədəflərinə çatmaq baxımından əhəmiyyətlidir: "Dostluq, hörmət, həmrəylik kimi Olimpiya dəyərlərini xüsusi vurğulamaq istərdim. Belə turnirlər sayəsində idmançılara yeniyetmə yaşlarından bu dəyərlər aşılanır. Atletlər kəndində qalır, bir çox idmançılarla ünsiyyətdə olurlar. Görürlər ki, ab-hava tamamilə fərqlidir. Yeni dostluqlar, yaxşı münasibətlər yaranır, əlaqələr genişlənir. Bununla da böyük təcrübə toplayırlar. Belə turnirlər gənc idmançılarımızın gələcəkdə Olimpiadalarda daha sərbəst və inamlı iştirak etmələrinə şərait yaradır."

Qeyd edək ki, "Skopye-2025"də Avropanın 50 ölkəsindən 14-18 yaşarası 4 mindən çox idmançı 15 növ üzrə mübarizə aparıb. Festivalda Azərbaycan komandası ümumilikdə 10 idman növündə 52 (28 oğlan, 24 qız) idmançı ilə təmsil olunub.


Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alçış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4432
Sifariş: 1600
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova